Günəş Şərqdən doğur!
№ 14 (5295), 2021-ci il
Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
26 yanvar 2021-ci il (çərşənbə axşamı)




## Yoluxanların sayı 100-dən aşağı düşdü

273 nəfər koronavirusdan sağalıb, 57 nəfər yoluxub, 11 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 57 yeni yoluxma faktı qeydə alınıb, 273 nəfər müalicə olunaraq sağalıb.

(Səh.8)

## Köçkünlər yurdlarına xüsusi proqramla qaytarılacaq



“İşğaldan azad olunmuş ərazilərin bərpası məsələləri dövlət orqanlarının dövlət siyasətinin müxtəlif istiqamətləri üzrə fəaliyyətində prioritet təşkil etməli, cari və perspektiv işlər Böyük Qayıdış planları ilə əlaqələndirilməlidir”.

(Səh.2)

## Günün içindən...

### ATƏT Dağlıq Qarabağın status məsələsini yersiz şəkildə qabardır

Hikmət Hacıyev: “Daha Minsk Qrupunun münaqişə ilə bağlı keçmiş narrativləri işləmir, çünki regionda situasiya tamamilə dəyişib”



**“ATƏT-in Minsk Qrupu yeni reallığa uyğunlaşmalıdır”.**

Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ-da yerləşən aparıcı beyin mərkəzi ”Atlantic Council”in virtual formatda keçirilən müzakirəsində çıxışı zamanı deyib.

(səh.3)

### Vitaliy Milonov qatı ermənipərəstdir




XİN: “Onun Azərbaycan dövlətinə və xalqına qarşı qəbuledilməz ifadələr işlətməsini qəti şəkildə pisləyirik”

(səh.2)

# Xırdalanda güclü partlayış baş verib







## Dağıntılar altından bir nəfərin cansız bədəni çıxarılıb, 6 nəfər isə xilas edilib

Abşeron rayonu, Xırdalan şəhəri, 27-ci məhəllə adlanan ərazidə yerləşən və partlayış nəticəsində uçqun baş vermiş ikimərtəbəli fərdi yaşayış evində Fövqəladə Hallar Nazirliyinin qəza-xilasetmə qüvvələri tərəfindən axtarış-xilasetmə əməliyyatı aparılıb.

(səh.8)

# Baş rolda ABŞ-dır

## Navalnı post-Putin dövrü üçün hazırlanan bir liderdir

(səh.10)



### MEDİA silsilə tədbirlərinə “ADA" Universiteti ilə başladı

(səh.4)

### Təxribatdır...

Türk gəmisinə hücum planlı şəkildə törədilib

(səh.5)

### “Artilleriyamız daha dəqiqdir"

İlham Tumas: “Aprel, Tovuz döyüşləri və digər hadisələr bizə xeyli təcrübə qazandırdı”

(səh.9)

### “Koronavirusa qarşı vaksin mövcud deyil"

Həkim-psixiatr şok açıqlamalar verib

(səh.14)



### Ən böyük arzusu Qarabağı azad etmək idi

Qardaşı Devranın döyüş yolundan danışıb

(səh.9)

### Həyatda qalmaq şansı 5 faiz olub



Şuşa fatehini Bakıda həkimlər həyata qaytarıb

(səh.9)

# Qarabağın quruculuq işlərində İran şirkətləri də iştirak edəcək

## Prezident İlham Əliyev: “Ümidvaram ki, tezliklə yeni körpünün təməlqoyma mərasimi keçiriləcək”

“İşğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq". Bunu Prezident İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının Xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, tərəflər arasında müzakirə ediləcək məsələlər hələ çoxdur. Prezident ilk növbədə, ikitərəfli əlaqələri, onların səviyyəsini, inkişaf tempini, nailiyyətləri və yeni planları yüksək qiymətləndirdiyini bildirib:

”Biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq. Bu, təbiidir, çünki dediyim kimi, yalnız dost ölkələr bizim tərəfdaşımız olacaq. Sözsüz ki, İran şirkətlərinin bizə yaxın yerləşməsi, logistika və böyük təcrübə kimi üstünlükləri var”.



**“Biz planlaşdırdığımız bütün işləri həyata keçirmişik”**

**Ölkə rəhbəri ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən çox məmnun olduğunu deyib:** ”İl artıq başlayıb və mən planlarımızı müzakirə etmək, görülmüş işlərə yenidən nəzər salmaq üçün sizi Azərbaycanda qəbul etməyə şadam. Ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi keçiriləcək. Bildiyiniz kimi, biz çoxsaylı, prezidentlər səviyyəsində 10-dan çox, eləcə də digər yüksək rütbəli rəsmilər səviyyəsində görüşlər keçirmişik. Bu görüşlərin hamısı çox səmərəli olub. Bu yaxınlarda ölkənizdə səfərdə olan Baş nazirin müavini Şahin Mustafayev mənə aparılan müzakirələr və razılaşmalar barədə hesabat verdi. Biz planlaşdırdığımız bütün işləri həyata keçirmişik. Son bir neçə ildə iki qardaş ölkənin çox yaxın olduğu siyasi sahədə, iqtisadi sahədə, nəqliyyat, enerji sahələrində çox yaxşı nəticələr görürük. Bizim bu gün diqqətimizdə olan Şimal-Cənub nəqliyyat dəhlizi kimi bütün layihələr, enerji infrastrukturu ilə bağlı layihələr uğurla inkişaf edir. Şimal-Cənub nəqliyyat dəhlizi işləyir. Mənə indicə məlumat verilib ki, ötən il yükdaşımaların həcmi demək olar ki, 20 faiz artıb. Bu çox müsbət nailiyyətdir. Baxmayaraq ki, onu tam şəkildə başa çatdırmamışıq, biz bu istiqamətdə hərəkət edirik”.

**“Gələcək planlar artıq çox aktiv fazadadır”**

**Dövlət başçısı qeyd edib ki, regionda vəziyyətlə əlaqədar yeni imkanlar özəl investorlar, həmçinin dövlət qurumları üçün əməkdaşlığa geniş qapılar açır:** ”Hazırda yeni nəqliyyat əlaqələri müzakirə mərhələsindədir və sözsüz ki, bizim Xudafərin su anbarı ilə bağlı əməkdaşlığımız və elektrik stansiyasının tikintisi ilə əlaqədar gələcək planlar artıq çox aktiv fazadadır. Ümidvaram ki, qarşıdakı bir neçə ildə bu layihəni tamamlaya və hər iki tərəfi yeni elektrik enerjisi istehsalı ilə təmin edə biləcəyik. Həmçinin bizim bir neçə il əvvəl yüksək səviyyədə razılaşdırdığımız layihə - Ordubad və Marazad elektrik stansiyaları ilə bağlı işlər uğurla gedir. Beləliklə, bizim geniş gündəliyimiz var. Bundan əlavə, ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi keçiriləcək və bir çox digər məsələlər”.

**“Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğala son qoyulmasından sonra artıq normal vəziyyət mövcuddur”**

**İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərif isə vurğulayıb ki, Qələbə region dövlətləri arasında dinc və normal münasibətlərin başlanğıcı olacaq:** ”Mən Sizin ”3+3” əməkdaşlıq formatı təklifinizə uyğun olaraq, regionun 6 ölkəsini ziyarət edəcəm, yəni 5 üstəgəl İran. Sizin sülhlə bağlı təqdim etdiyiniz baxışınızın müzakirəsi və onun reallığa çevrilməsini təmin etmək üçün çalışacam. Çünki region ölkələrinin bir-biri ilə əməkdaşlıq edə bilməsi hamımızın maraqlarına uyğundur”. İran XİN başçısı qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğala son qoyulması, habelə azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq imkanı əldə etməsindən sonra artıq normal vəziyyət mövcuddur və İran bu işdə yardımçı olmaq arzusundadır: ”Biz Sizin dostunuz olmaqdan əlavə, yaxın qonşuyuq və əhalinin qayıdacağı, yenidənqurma işlərinin aparılacağı ərazilərinizin bərpası baxımından digər ölkələr ilə müqayisədə üstünlüyə malikik. Biz o insanları ailə və soydaş hesab edirik. Arazın hər iki sahili boyu hər zaman soydaşlıq və dostluq münasibətləri mövcud olub”.

**“Şimal-Cənub və Cənub-Qərb dəhlizləri çərçivəsində işləmək arzusundayıq”**

**Zərif bildirib ki, energetika, yenidənqurma və geri dönəcək əhalinin yaşayışı üçün vasitə ola biləcək kənd təsərrüfatı kimi sahələr onlar üçün prioritet təşkil edir və İran şirkətləri işə başlamağa hazırdır:** ”Sizin rəhbərliyiniz altında bu günə qədər həyata keçirdiyimiz səfərlər, o cümlədən ölkənizin Baş nazirinin müavini və xarici işlər nazirinin İrana olduqca uğurlu səfərlərini yüksək qiymətləndiririk. Biz Şimal-Cənub və Cənub-Qərb dəhlizləri çərçivəsində həmin sahələr üzrə işləmək arzusundayıq. Buraya elektrik enerjisinin istehsalı, energetika, ”Xudafərin” və ”Qız Qalası” hidroqovşaqları ilə bağlı əməkdaşlıq və digər məsələlər də aiddir. Çox şadıq ki, rəsmilərinizin İrana səfərləri zamanı bu layihələr üzrə sürətli irəliləyiş əldə olunub və artıq biz ölkələrimiz arasında daha uzun birgə dostluq sərhədinə sahib ola bilərik”.

**İsmayıl**

## Belçikalı Hendrik Daems yenidən AŞPA-nın prezidenti seçilib



**Belçikalı Hendrik Daems yenidən AŞPA-nın prezidenti seçilib.**

Azərtac xəbər verir ki, Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının açılışında qurumun prezidenti vəzifəsinə seçkilər keçirilib. AŞPA-nın ötənilki prezidenti belçikalı Hendrik Daems yenidən Assambleyanın prezidenti seçilib.

## Köçkünlər yurdlarına xüsusi proqramla qaytarılacaq

**”İşğaldan azad olunmuş ərazilərin bərpası məsələləri dövlət orqanlarının dövlət siyasətinin müxtəlif istiqamətləri üzrə fəaliyyətində prioritet təşkil etməli, cari və perspektiv işlər Böyük Qayıdış planları ilə əlaqələndirilməlidir”.**

Bunu Nazirlər Kabinetinin bu gün keçirilən müşafirəsində Baş nazir Əli Əsədov bildirib.

Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetinin müşavirəsində Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı tərəfindən verilən tapşırıqların icrası və qarşıda duran vəzifələr müzakirə olunub.

Baş nazir deyib ki, Keçmiş köçkün əhalimiz öz dədəbaba yurdlarına qaytarılmalıdır: ”Bu proses xüsusi proqram əsasında həyata keçirilməlidir”.

# Vitaliy Milonov qatı ermənipərəstdir

## XİN: “Onun Azərbaycan dövlətinə və xalqına qarşı qəbuledilməz ifadələr işlətməsini qəti şəkildə pisləyirik”

**“Rusiya Dövlət Dumasının hakim ”Vahid Rusiya” partiyasından olan üzvü, qatı ermənipərəst mövqeyi ilə tanınan Vitaliy Milonovun erməni KİV-nə müsahibəsi zamanı Azərbaycan dövlətinə və xalqına qarşı qəbuledilməz ifadələr işlətməsini qəti şəkildə pisləyirik”.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib.




”Məlum olduğu kimi, Dövlət Dumasının üzvü Vitaliy Milonov Azərbaycan Respublikasının müvafiq qanunvericiliyini pozaraq, ölkəmizin işğaldan azad olunmuş ərazisinə qeyri-qanuni səfər etdiyi üçün onun adı Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına əlavə edilib.

Rusiya Dövlət Dumasının üzvü Vitaliy Milonovun Azərbaycan əleyhinə atdığı növbəti təxribatçı addımı Azərbaycan və Rusiya arasında mövcud olan yüksək səviyyəli münasibətlərə tamamilə ziddir.

Dövlət Dumasının üzvünün belə bir məsuliyyətsiz və Rusiya Federasiyasının rəsmi mövqeyinə uyğun gəlməyən davranışı ölkələrimiz arasında münasibətlərə kölgə salmaq cəhdidir. Onun bu çıxışı, həmçinin Rusiya da daxil olmaqla bölgə ölkələrinin uzun illərdir davam edən düşmənçiliyə son qoyulması və xalqlar arasında sülh, əmin-amanlıq və əməkdaşlığın təmin olunması istiqamətində atdığı addımlara xələl gətirir.

Azərbaycan və Rusiya arasında strateji xarakterli tərəfdaşlıq münasibətləri hər iki ölkə Prezidentlərinin sıx təmasları ilə intensiv şəkildə inkişaf etməkdədir. Dövlət Dumasının üzvü statusundan istifadə edərək bu münasibətlərə xələl gətirmək cəhdləri qəbuledilməzdir və uğursuzluğa düçardır”, - deyə XİN rəsmisi vurğulayıb.

# Ermənistan məyusdur, İtaliya Azərbaycanı Zirvə toplantısına dəvət edib




## Ölkəmizin beynəlxalq nüfuzu, hərbi gücü, iqtisadi inkişafı bu sevindirici hadisədə mühüm rol oynayıb

## "Regionda 27 sentyabra qədər güclü, 8 noyabrdan sonra isə gücünə güc qatan Azərbaycan var"

**Azərbaycanın oktyabrın 30-31-də Romada keçiriləcək G 20-nin Zirvə toplantısına dəvət alması Ermənistanı əməlli-başlı məyus edib. Düşmən ölkənin Vatikandakı keçmiş səfiri, eks-prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyan İtaliyanın Azərbaycanı Zirvə toplantısına dəvət etməsinin onlara ağır gəldiyini etiraf edib.**

Minasyan xüsusi olaraq bildirib ki, İtaliya G 20-yə rəhbərlik etdiyi dövrdə mühüm dövlətləri seçərək zirvəyə dəvət edir: "Vaxtilə Ermənistan üçün ən yaxın dost sayılan ölkələrdən biri olan, həm ağır günlərdə, həm də xoş anlarda həmişə yanında görünən İtaliya... Bu o İtaliyadır ki, Ermənistanla əlaqəli məsələlərə ən azı balanslı yanaşma göstərirdi. Onlar Azərbaycanla yanaşı, Ermənistana da dəvət göndərib, bərabərlik prinsipini təmin etməyi lazım bilmədilər". Keçmiş diplomatın sözlərinə görə, bu məqam Ermənistan diplomatiyasının, xarici siyasətin, dövlət qurumlarının məhv edildiyi və aciz qaldığının daha bir təəccüblü və acı sübutudur. "Nikolizm" dövlətimizi daxildən məhv etdi. Ləyaqətimizi itiririk. Və bu xainlərin Ermənistanı təmsil etməsinə icazə verdiyimiz müddətdə dünyanın reaksiyası fərqli ola bilməz. Nə qədər ki, biz özümüzə hörmət etmirik, başqalarının bizə hörmət etməsinə səbəb olmayacaq".

**İnformasiya Təşəbbüslərinə Dəstək İB-nin sədri, "QHT.az" saytının rəhbəri Cəsarət Hüseynzadə "Şərq"ə deyib ki, "G 20" siyasi və iqtisadi təşəbbüslərin təqdim olunduğu böyük bir platformadır.** 1999-cu ildə iqtisadi kriz dönəmində yaradılan bu platformanın iştirakçı dövlətlərinə və beynəlxalq qurumların siyahısına baxsaq, nə qədər nüfuzlu olduğunu görərik. Onun sözlərinə görə, bu qrupa daxil olan ölkələr dünyada istehsal olunan malların 85, beynəlxalq ticarətin 75 faizinə sahibdirlər. Dünya əhalisinin üçdə ikisini "G 20" ölkələrində yaşayır. Bu üç göstərici "Böyük 20-liyin" nüfuzunu ifadə etmək üçün kifayət qədər yetərlidir. Azərbaycanın da oktyabrın 30-31-də Romada keçiriləcək "G 20"nin Zirvə toplantısına dəvət alması çox mühüm və sevindirici hadisədir. Əlbəttə ki, bu dəvətin səbəbləri var. Bu səbəb Azərbaycanın və Prezident İlham Əliyevin dünya miqyasında olan nüfuzundan, ardıcıl aparılan uğurlu xarici siyasətdən, ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolundan irəli gəlir. Azərbaycan 2020-ci ildə yeni dönəmə və öz inkişaf mərhələsində yeni eraya daxil olub. 44 günlük müharibə nəticəsində öz ərazi bütövlüyünü təmin edən ölkəmiz dünyaya yeni mesajlar verdi. Son illərdək ərazi bütövlüyünün hərbi yolla bərpa edilməsi ilə bağlı nümunə demək olar ki, yoxdur. Azərbaycan bunu dünyaya göstərdi. Fikrimcə, yeni dönəmin növbəti mərhələsi iqtisadi və energetika müstəvidə reallaşmaqdadır. Bu konsepsiyanın ilk işartısı Aşqabad şəhərində Azərbaycanla Türkmənistan arasında "Dostluq" yatağının birgə işlənməsi ilə bağlı Memorandumun imzalanması oldu. Hesab edirəm ki, bu iqtisadi inkişaf mərhələsinin vacib məqamı da Azərbaycanın Şərqlə Qərb arasında oynayacağı mühüm rol ilə bağlı olacaq".

**QHT rəhbəri vurğulayıb ki, qeyd olunan faktlar yeni yaranan imkanların Azərbaycanın xeyrinə olduğunu göstərir:** "Regionda 27 sentyabra qədər güclü, 8 noyabrdan sonra isə gücünə güc qatan Azərbaycan var. Əks tərəfdə isə pis vəziyyətdən daha acınacaqlı duruma düşən Ermənistan mövcuddur. Darmadağın olan ordu, iqtisadiyyat və ölkə!!! Vəziyyət o qədər aydındır ki, erməni ekspertlər də bunu artıq başa düşür və həyəcan siqnalı verirlər. Azərbaycanın beynəlxalq səviyyədə uğurları ilə Ermənistanın hazırkı durumu müqayisə olunmaz səviyyədədir. Heç şübhəsiz, bəzi erməni siyasətçilər bu reallığı dərk edir və etirafa məcbur qalır. Ermənistanın bu duruma düşməsində hazırkı Baş nazir Nikol Paşinyanın da günahları az deyil. Küçədən hakimiyyətə gələn Paşinyan Ermənistanın uçuruma bir qədər də tez yuvarlanmasına kömək etdi. Ümumilikdə isə Ermənistanın bu vəziyyətə düşməsində Azərbaycanın gücünün mühüm təsiri var. Azərbaycan öz gedişləri və gücü ilə dəfələrlə Ermənistanın siyasi sisteminə təsir edə bilib. Sonuncu hakimiyyət dəyişikliyi Azərbaycanın Aprel döyüşlərindəki qələbəsi ilə bağlı idi. Hazırda Ermənistanda bir neçə ay davam edən gərginlik, yenə də Azərbaycanın düşməni məhv etməsi ilə bağlıdır".

**C.Hüseynzadənin fikrincə, Azərbaycan tərəfinin böyük uğurlarına Ermənistanın aşırı qısqanclıqla yanaşması başadüşüləndir:** "İqtisadi və digər göstəricilərə görə, Azərbaycan və Ermənistan müqayisə olunacaq ölkələr deyil. Lakin qonşu dövlət və müharibə tərəfləri olmuş ölkələr kimi bütün hallarda müqayisə aparılır. Və bu müqayisə Ermənistanın iqtisadi və hərbi gücü ilə yanaşı, beynəlxalq nüfuzunun da aşağı olması ilə səciyyələnir. Düzdür, bir neçə Avropa ölkəsinin Ermənistanı yazıq ölkə kimi müdafiə etməsi faktları var. Lakin bu müdafiənin erməni lobbisi ilə bağlılığı, eyni zamanda həmin ölkələrin Azərbaycan və Türkiyəyə qarşı qərəzli olduğunu hər birimiz yaxşı bilirik. Bu baxımdan İtaliyanın Azərbaycanı Zirvə toplantısına dəvəti Ermənistanda təşvişə səbəb olub".

**İsmayıl Qocayev**

## Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib



**Azərbaycan Birinci Vitse-prezidenti Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti və İcra Komitəsinin sədri seçilib.**

Bu barədə Azərbaycan Gimnastika Federasiyası məlumat yayıb.

Bildirilib ki, 11-ci Ümumi Yığıncaq və İcra Komitəsinin 37-ci iclası çərçivəsində baş tutan səsvermənin yekununa əsasən Mehriban Əliyeva növbəti 5 ildə federasiyaya rəhbərlik edəcək.

*Qeyd edək ki, Mehriban Əliyeva 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik edir.*

## ATƏT Dağlıq Qarabağın status məsələsini yersiz şəkildə qabardır

### Hikmət Hacıyev: "Daha Minsk Qrupunun münaqişə ilə bağlı keçmiş narrativləri işləmir, çünki regionda situasiya tamamilə dəyişib"



**"ATƏT-in Minsk Qrupu yeni reallığa uyğunlaşmalıdır".**

APA-nın xəbərinə görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ-da yerləşən aparıcı beyin mərkəzi "Atlantic Council"in virtual formatda keçirilən müzakirəsində çıxışı zamanı deyib.

ATƏT-in Minsk Qrupunun Azərbaycandakı reputasiyasına toxunan Hikmət Hacıyev onun aşağı olduğunu, bunun əsas səbəbinin isə təşkilatın 25 ildən artıq bir müddətdə münaqişənin həllinə real töhfə verə bilməməsi ilə bağlı olduğunu vurğulayıb.

O bildirib ki, artıq ATƏT-in Minsk Qrupunun bu münaqişə ilə bağlı keçmiş narrativləri işləmir, çünki regionda situasiya tamamilə dəyişib.

Hikmət Hacıyev ATƏT-in Dağlıq Qarabağın status məsələsini yersiz şəkildə qabartdığını, bunun isə Ermənistanda yanlış və gərəksiz gözləntilər yaratdığını bildirib.

O, Minsk Qrupunun gələcəkdə müxtəlif layihələr vasitəsilə sülh quruculuğuna töhfə verə biləcəyinin mümkünlüyünü qeyd edib.

# ABŞ-ın məqsədi, hədəfi bəllidir

## Böyük güc Ermənistanı Rusiyadan qoparıb qərbyönlü bir dövlət yaratmaq istəyir

## "Administrasiyada Azərbaycana və Türkiyəyə qarşı böyük təzyiqlərin olacağı gözlənilmir"

Gərgin mübarizədən sonra 4 il ABŞ-a rəhbərlik edən Donald Trampı Co Bayden əvəz etdi. İndi bütün dünya ölkələrinin gözü Vaşinqtona dikilib. Yeni ABŞ hökumətinin Çin, Rusiya, İran və Türkiyə ilə münasibətlərdə hansı xətt tutacağı ciddi sual doğuran mövzulardandır.

Müharibədən yeni çıxan Azərbaycan üçün də Bayden administrasiyasının regionda hansı siyasət aparacağı xüsusi əhəmiyyət kəsb edir.

Baydenin prezident olmasının Azərbaycan və Türkiyə üçün hansı siyasi təsirləri olacaq?

**Mövcud prosesləri "Şərq"ə şərh edən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, hazırda Rusiya və Ermənistan əlaqələrinin yaxşı olması aktual deyil:** "Bölgədəki hadisələrdən sonra Ermənistanın qərbyönümlü siyasəti daha da güclənəcək. Təbii ki, Bayden administrasiyası da bizim bölgə ilə əlaqədar məsələlərdə əsas dəstəyi Ermənistana verəcək.

Məqsəd və hədəf bəllidir: Ermənistanı Rusiyadan qoparıb qərbyönlü bir dövlət yaratmaq istəyir. Eyni zamanda erməni diasporunun fəallığını da yaddan çıxarmalı deyilik.

Çünki xüsusilə ABŞ Nümayəndələr Palatası və Senatında



olan bəzi ermənipərəst siyasətçilər fəallaşacaqlar, hətta artıq fəallaşıblar da. Beləliklə, həmin güclər ermənipərəst qərarların qəbulunda yaxından iştirak edəcəklər.

Təbii ki, bu qərarlar əsasən Nümayəndələr Palatası və Senatda qəbul olunacaq. Administrasiyada isə Azərbaycana və Türkiyəyə qarşı böyük təzyiqlərin olacağını gözləmirəm.

Lakin parlament səviyyəsində təzyiqlərin şahidi olacağıq. Artıq Türkiyəyə qarşı tənqidi münasibətlər səslənir və bu, daha da güclənəcək. Rusiyanı da yaddan çıxartmaq olmaz.

Rusiya və ABŞ münasibətləri yenə də əvvəlki kimi və bəlkə daha kəskin şəkildə pisləşəcək. Məlumdur ki, bölgəmizdə əsas regional oyunçular Türkiyə və Rusiyadır. Təbii ki, ABŞ-ın bu ölkələrə münasibəti ümumi olaraq bizə də təsir göstərəcək".

**Yeganə Bayramova**

# "Siz bizim könlümüzü fəth etdiniz"

## Türkiyədən Prezidentə yazırlar: "Tək istəyimiz Qarabağ torpağına ayaq basmağımızdır"

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:



**Almaniya Federativ Respublikası, Baden-Vürtemberq şəhərindən Rasfil Abramov:** Hörmətli cənab Prezident İlham Əliyev, mənim 67 yaşım var. Almaniyada, İsveçrənin Basel şəhəri ilə sərhəddə yaşayıram. Əvvəla, Sizi Azərbaycanın Qarabağ müharibəsindəki parlaq qələbəsi münasibətilə ürəkdən təbrik edirəm. Siz Azərbaycanın böyük Qəhrəmanısınız. Sizə uzun ömür, möhkəm cansağlığı və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm. Allah Sizi bu xalqın üstündən əskik etməsin!

**Türkiyə, Bursa şəhərindən Burak Dəmir:** Əziz və hörmətli Prezident İlham Əliyev. Sizə necə təşəkkür edəcəyimi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Vətən müharibəsində qazandığınız Zəfər bütün dünyaya Sizin hərbi və siyasi dühanızı nümayiş etdirdi. Siz erməniləri məhv etdiniz, bizim isə könlümüzü fəth etdiniz. Əminəm ki, Sizin rəhbərliyiniz altında Azərbaycan daha da inkişaf edəcəkdir. Həyat yoldaşımla qərar vermişik ki, oğlumuz olarsa, adını Heydər İlham qoyacağıq. Bizim Sizdən tək istəyimiz Sizin əlinizi öpüb, Qarabağ torpağına ayaq basmaqdır. Sizin sayənizdə düşmənləri "iti qovan kimi qovduq torpaqlarımızdan". Bu gün alnıaçıq, üzüağ, qürurla deyə bilərəm ki, Füzuli bizimdir, Zəngilan bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Xocalı bizimdir, Şuşa bizimdir, Ağdam bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Eşq olsun Azərbaycanın Prezidenti möhtərəm İlham Əliyevə! Üçrəngli Bayrağınla məsud yaşa, Azərbaycan!

**Sabirabad rayonu, Suqovuşan kəndindən Tural Hüseynzadə:** Əziz və hörmətli Prezident, Bizə və bütün xalqımıza möhtəşəm Qələbə hissini yaşatdığınız üçün Sizə ailəm və şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm. Sizi ailəliklə çox sevirik. Siz müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı olan Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi təkcə hərb meydanında deyil, həm də siyasi arenada qalib oldunuz. Bugünkü qalibiyyətimiz Sizin möhkəm iradənizin, qətiyyətli mövqeyinizin və müdrik siyasətinizin nəticəsidir. Siz Azərbaycan xalqının əvəzedilməz Liderisiniz. Tanrı Sizi qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Şirvan şəhərindən Balabəy Ağakişiyev:** Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan! Siz fəaliyyətə başladığınız ilk gündən müstəqilliyimizi qorumaq, güclü Azərbaycan dövləti yaratmaq, hər bir Azərbaycan vətəndaşının maddi və mənəvi rifahının yaxşılaşdırılması üçün yorulmadan çalışırsınız. Uzun illərdir xain düşmənimiz olan erməni faşistləri tərəfindən işğal olunan doğma torpaqlarımızı azad etməklə, Siz üzərinizə düşən bu şərəfli vəzifəni ləyaqətlə yerinə yetirdiniz. Xalqımıza böyük qələbə sevincini və qürurunu bəxş etdiniz. Buna görə Sizə minnətdaram, cənab Prezident. Bu gün Sizin işğaldan azad olunan torpaqlarda abadlıq və quruculuq işləri ilə bağlı verdiyiniz tapşırıqlar uğurla icra olunur. Əminik ki, doğma Qarabağımız öz əvvəlki vəziyyətinə qayıdacaq və xalqımız bu torpaqlarda daha da xoşbəxt və firavan yaşayacaq. Bu çətin, lakin şərəfli bir missiyanın yerinə yetirilməsində Uca Tanrıdan Sizə möhkəm cansağlığı diləyirəm. İşləriniz daim yolunda getsin! Ən əsası, heç bir zaman unutmayın ki, xalqın duaları Sizinlədir. Qarabağ Azərbaycandır!

**Aynurə Pənahqızı**




# Nərimanlı kəndinin sakinlərinin müraciəti alqışlandı

## Onların Hadrut qəsəbəsinə köçmək istəyir

Göyçə mahalı Basarkeçər rayonu (Ermənistan Respublikası Vardenis rayonu) Nərimanlı kəndindən 1988-ci ildə qaçqın düşən 600-ə yaxın ailə Qarabağın işğaldan azad edilən Hadrut qəsəbəsinə köçmək istəyir. Bununla bağlı kənd sakinləri adından Prezident İlham Əliyevə müraciət olunub.

"Cənab Prezident, Müzəffər Ali Baş Komandan! Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı kimi Sizin siyasi və diplomatik arenadakı fəaliyyətinizi, daxili və xarici siyasətinizi dəstəkləyir, rəhbərliyiniz altında Rəşadətli Azərbaycan Ordusunun düşmən üzərindəki möhtəşəm qələbəsini alqışlayırıq: "Bizim sizdən xahişimiz budur ki, dərin kökləri olan adət - ənənələrimizin itməməsi, insanlarımızın yadlaşmaması naminə 600-ə yaxın Nərimanlı ailəsinin Hadrut qəsəbəsində məskunlaşmasına sərəncam verəsiniz".

**Kənd sakinlərinin təşəbbüsünü "Şərq"ə dəyərləndirən millət vəkili Elman Məmmədov deyib ki, hələ müharibə yekunlaşdığı gündən qərbi azərbaycanlıların Hadruta köçmək fikri var:** "Hətta mənə bir nəfər ağsaqqal müraciət edib, istəyini bildirmişdi. Dedi, səsimizi çatdırsanız sevinərik, Hadrutda yaşamaq istəyirik. İndi də Basarkeçər rayonundan belə bir təşəbbüs gəlib. Onu da deyim ki, Nərimanlı Göyçə mahalının ən böyük kəndlərindən biridir. Bu, alqışlanası addımdır. Biz də sadəcə rəyimizi bildiririk. Lakin ora kim köçəcək, məsələ necə həll olunacaq, bunlar dövlət başçımızın göstərişindən sonra bilinəcək. Mən də vətəndaşlıq mövqeyi göstərərək deyirəm ki, insanların təşəbbüsünü bəyənirəm, alqışlayıram".

**Samirə Ərəbova**

# MEDİA silsilə tədbirlərinə "ADA" Universiteti ilə başladı







**Bu ay ölkə başçısının fərmanı ilə yaradılan Medianın İnkişafı Agentliyi (MEDİA) 2021-ci il üçün nəzərdə tutduğu silsilə tədbirlərin həyata keçirilməsini "ADA" Universiteti ilə birgə təşkil edilən "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarlarla başladı.**

Universitetin İxtisasartırma Proqramının mütəxəssisləri tərəfindən aparılan seminarlarda dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətləri rəhbərləri, ictimaiyyətlə əlaqələr və mətbuatla iş üzrə məsul əməkdaşları iştirak edirlər. Seminarlarda məqsəd dövlət və ictimai sektor qurumlarının media subyektləri ilə əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı kommunikasiya əlaqələrinin təkmilləşdirilməsi, eləcə də müasir media mühitində ictimaiyyəti məlumatlandırma mexanizmlərinin daha səmərəli qurulmasıdır.

Seminarda ADA Universitetinin media sahəsi üzrə yerli və xarici tədqiqatçıları ilə yanaşı, biznes sektorunun mütəxəssisləri və ölkənin multimedia platformasının aparıcı üzvləri ilə panel müzakirələr təşkil edilib. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev seminar iştirakçıları qarşısında ustad dərsi ilə çıxış edib. İnteraktiv müzakirələr zamanı mətbuat xidməti rəhbərləri "İctimai əlaqələr şöbəsinin təşkilatdakı məqsədi və rolu", "Kommunikasiya planı və gündəlik media təmasları: proaktiv və reaktiv strategiyalar", "Böhran vəziyyətlərində kommunikasiyanın qurulması" kimi mövzularda fikir mübadiləsinə qoşularaq, müasir media mühitindəki çağırışlara yeni həll yolları axtarıblar. Seminar digər mühazirəçilərin çıxışları ilə sabah (bu gün) da davam etdiriləcək.

*Xatırladaq ki, Medianın İnkişafı Agentliyi Azərbaycan Respublikası Prezidenti tərəfindən medianın inkişafının dəstəklənməsi, bu sahədə təsisat quruculuğu işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə yaradılmışdır.*

# Tehran Qarabağın Azərbaycana məxsusluğunu bir daha təsdiqlədi

Bu gün Prezident İlham Əliyev İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib. Görüş zamanı ikitərəfli münasibətlər və regional əməkdaşlıq məsələləri müzakirə olunub.



Azərbaycan Prezidenti ilk növbədə, ikitərəfli əlaqələri, onların səviyyəsini, inkişaf tempini, nailiyyətləri və yeni planları yüksək qiymətləndirdiyini bildirib:

”Biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq”.

**Məhəmməd Cavad Zərif deyib ki, Azərbaycan prezidentinin ”3+3” əməkdaşlıq formatı təklifinə uyğun olaraq, regionun 6 ölkəsini ziyarət edəcək:**

”Yəni 5 üstəgəl İran. Sizin sülhlə bağlı təqdim etdiyiniz baxışınızın müzakirəsi və onun reallığa çevrilməsini təmin etmək üçün çalışacağam, çünki region ölkələrinin bir-biri ilə əməkdaşlıq edə bilməsi hamımızın maraqlarına uyğundur. Ölkənizin ərazi bütövlüyünün bərpası və işğala son qoyulması, habelə azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq imkanı əldə etməsindən sonra artıq normal vəziyyət mövcuddur və İran bu işdə yardımçı olmaq arzusundadır”.

**”Atlas” Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu məlum görüşlə bağlı fikirlərini ”Şərq”lə bölüşüb:**

”İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərifin Prezident İlham Əliyevlə görüşündə səsləndirdikləri fikirləri bir neçə hissəyə bölmək olar: Birincisi, İranın xarici işlər naziri Azərbaycan prezidentini və xalqını işğal altındakı ərazilərin azad edilməsi münasibətilə təbrik etdi. Zərifi Azərbaycanın Ermənistan üzərindəki qələbəsiylə bağlı başqa cümlələr də işlətdi: ”Ölkəniz və region baxımından bu qələbə Sizin rəhbərliyiniz və Azərbaycan xalqının mətanəti sayəsində mümkün oldu.

Ümid edirik ki, bu, region dövlətləri arasında dinc və normal münasibətlərin başlanğıcı olacaq.

İran rəsmisinin Azərbaycanı işğalçı üzərində qələbə münasibətilə təbrik etməsi Azərbaycan və Azərbaycan-İran əməkdaşlığı üçün əhəmiyyətlidir. İran rəsmiləri müharibəyə qədər deyirdilər ki, Dağlıq Qarabağ münaqişəsini güc yolu ilə deyil, yalnız danışıqlar yolu ilə həll etmək olar. Azərbaycan bu reallığı dəyişdi və Tehran müharibə ilə qələbə reallığını qəbul etdi.

**“Zərifinin Bakıda qələbə ilə bağlı dedikləri müxtəlif dillərə tərcümə ediləcək və Ermənistanda da oxunacaq”**

Zərifi Azərbaycandan sonra Ermənistana səfər edəcək. Aydındır ki, İranın xarici işlər naziri Bakıda dediklərini İrəvanda təkrarlamayacaq. Ancaq Zərifinin Bakıda qələbə ilə bağlı dedikləri müxtəlif dillərə tərcümə ediləcək və Ermənistanda da oxunacaq. Ermənistanda görəcəklər ki, İran Azərbaycanın qələbəsini və Dağlıq Qarabağın Azərbaycana məxsusluğunu birmənalı tanıyıb”.

**Politoloq qeyd edib ki, Tehran Azərbaycanın müharibədə qələbəsindən sonra regional əməkdaşlığın genişlənməsində Bakı və Ankara qədər maraqlıdır:** ”Zərifi Tehranın ”3+3” əməkdaşlıq formatını qəbul etdiklərini deyib: ”Sizin sülhlə bağlı təqdim etdiyiniz baxışınızın müzakirəsi və onun reallığa çevrilməsini təmin etmək üçün çalışacağam, çünki region ölkələrinin bir-biri ilə əməkdaşlıq edə bilməsi hamımızın maraqlarına uyğundur”.

İran işğal altındakı ərazilərin bərpasında iştirak etmək istəyir. Bu da Azərbaycanın maraqlarına uyğundur. Bununla İran bir daha Dağlıq Qarabağın Azərbaycana məxsusluğunu təsdiq etmiş olacaq. ”Azərbaycanın ərazi bütövlüyünü bərpası və işğala son qoyulması, habelə azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq imkanı əldə etməsindən sonra artıq normal vəziyyət mövcuddur. İran bu işdə yardımçı olmaq arzusundadır” - sözləri də Tehranın işğaldan azad olunmuş bölgələrdə çalışmaq istəyindən xəbər verir. Bunlardan biri artıq reallaşıb. İranla Azərbaycan Xudafərin su anbarından birgə istifadə etməyə başlayıblar, gələcəkdə Araz çayı üzərində elektrik stansiyasının tikintisi də planlaşdırılır. Yeni Azərbaycan torpaqları azad edildikdən sonra həmin ərazilərdə elektrikin təmini üçün ilk çalışmalara başlayan İran şirkətləri oldu. İranla Azərbaycan Ordubad və Marazad elektrik stansiyaları ilə bağlı işləri davam etdirirlər.

Beləliklə, müharibədən sonra Azərbaycanla İran arasında əməkdaşlığı inkişaf etdirmək üçün yeni imkanlar açılıb. Bunu İlham Əliyev də Zərifini qəbul edərkən vurğuladı.

”Biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq” deyən İlham Əliyev iki ölkə arasında əməkdaşlığın səviyyəsindən çox məmnun qaldığını bildirib. İran və Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizini də gücləndirməkdə maraqlıdırlar. 2020-ci ildə bu marşrutla yükdaşımaların həcmi 20 faiz artıb. Bu, müsbət nailiyyətdir”.

**Politoloq Sədrəddin Soltan bildirib ki, Azərbaycan Qarabağ münaqişəsindən sonra bölgənin təhlükəsizliyi üçün regional iqtisadi əməkdaşlığın inkişafını və genişlənməsini istəyir**: ”Bu, 3+3 əməkdaşlıq formatı ideyası əsasən Azərbaycan, Türkiyə və Rusiya əməkdaşlığını nəzərdə tutur. Amma İranın, Gürcüstanın və Ermənistanın bu əməkdaşlıqda iştirakı bölgənin perspektiv təhlükəsizliyini gücləndirə bilər. Bu həm də iqtisadi əməkdaşlığın işğaldan, bir-birinə qarşı ərazi iddiasından perspektivli olduğunu ortaya qoya bilər. Çünki Azərbaycan, Türkiyə, Gürcüstan arasında regional əməkdaşlıq öz bəhrəsini verib. Ehtimal olunur ki, bölgədə 3+3 əməkdaşlığı perspektivdə həm Cənubi Qafqazın təhlükəsizliyinə töhfə verə, həm bölgə yan təsirlərdən xilas ola, həm də bölgənin güclü olmasına təkan verə bilər”.

*Analitik qeyd edib ki, İran ərazilərimizin azad olunması üçün nə siyasi, nə humanitar dəstək verib:* ”Bu baxımdan İranın bir müsəlman dövləti kimi Qarabağda olmasına mənəvi və beynəlxalq haqqı çatmır. İran yalnız Azərbaycanla əvvəlki müqavilələri davam etdirə bilər”.

**Yeganə Bayramova**

# Təxribatdır...

## Türk gəmisinə hücum planlı şəkildə törədilib

Türkiyə şirkətinə məxsus "MV Mozart" adlı gəmiyə Nigeriya sahillərində dəniz quldurları tərəfindən hücum edilib. Gəmidə olan 19 nəfərdən 15-i girov götürülüb, 1 nəfər isə öldürülüb. Öldürülən şəxsin Fərman İsmayılov adlı azərbaycanlı mühəndis olduğu bildirilir. Gəminin kapitanı bildirib ki, quldurlar radar sistemini pozduqları üçün hazırda gəminin hansı istiqamətdə hərəkət etdiyi bilinmir.

Türkiyə mediası hadisənin təsadüf olmadığını gündəmə gətirir və Ankaraya qarşı növbəti təhdid mesajı kimi dəyərləndirirlər. Türk hərbi ekspert Coşqun Başbuğ ”A Haber”ə açıqlamasında deyib ki, Qvineya körfəzində türk gəmisinə hücum planlı şəkildə törədilib. Onun fikrincə, ”İstanbul” freqatının suya endirildiyi vaxtda belə bir hücumun törədilməsi heç də təsadüfi deyil və Türkiyəyə mesajdır: ”Bildiyiniz kimi, həmin bölgədə Fransanın təsiri çox böyükdür. Bu nöqtədə dəniz quldurlarından istifadə edə bilərlər. Türkiyənin Şərqi Aralıqda və Afrikada atdığı addımların bəzi Qərb güvvələrini narahat etdiyini xatırlamaq yerinə düşər”.

**Gəmiyə hücumla bağlı iddiaları ”Şərq”ə dəyərləndirən politoloq Azər Rəşidoğlu da bu olayın arxasında hansısa ”dəniz quldurlarının” dayandığını düşünmür. Siyasi şərhçinin sözlərinə görə, hadisə əvvəlcədən planlaşdırılmış təxribata bənzəyir:** ”Türkiyənin Aralıq dənizində təbii qaz kəşfiyyat işlərini başlatdığını elan etməsi çoxlarının qıcığına səbəb olub. Bir sıra ölkələrin, o cümlədən ABŞ-ın hərbi gəmisi həmin sularda keşik çəkir. Ankara Kipr adası ilə Türkiyə arasındakı bölgəyə iki geoloji-kəşfiyyat və qazma gəmiləri göndərib. Türkiyəyə məxsus ”Fatih” geoloji kəşfiyyat gəmisi may ayında Kipr adasının qərbində, ikinci geoloji kəşfiyyat gəmisi ”Yavuz” isə bu günlərdə Kiprin Karpaz yarımadasının cənubunda açıq dənizdə fəaliyyətə başlayıb. Lakin bu addım Avropa ölkələri və ABŞ-ın sərt reaksiyası ilə müşayiət olunub. Avropa İttifaqı Ankaranın qazma fəaliyyətlərinin ”qanunsuz” olduğunu deyərək Türkiyəyə xəbərdarlıq edib. Bildirib ki, qazma fəaliyyətləri dayandırılmayacağı təqdirdə Türkiyəyə qarşı sanksiyalar tətbiq olunacaq. Avropa İttifaqı Türkiyənin qazma fəaliyyətlərini ”Kiprin iqtisadi bölgəsinə girmək və suverenliyini tapdalamaq”da günahlandırıb. Türkiyə tərəfi isə Şimali Kipr Türk Respublikasının və onun türk vətəndaşlarının haqlarının olduğunu vurğulayıb. Ankara hökuməti Avropa tərəfinin sadəcə yunan tərəfinin haqlarını müdafiə etməsini ədalətsiz yanaşma adlandırır. Şimali Kipr hökuməti də Avropa İttifaqının Türkiyə qərarını tənqid edib. Prezidentin sözçüsü Barış Burcu, Avropa İttifaqının sanksiya qərarının ”problemin həllinə yardım etməyən, ədalətli olmayan, qəbul edilməz bir durum” adlandırıb”.

**Bir məqamı da unutmayaq ki, gəmiyə hücum edildiyi ərazidə Fransanın təsiri böyükdür**



**Ekspertlər də bu olayın arxasında hansısa “dəniz quldurlarının” dayandığını düşünmür**

Analitikin qənaətincə, Kipr, Livan, Suriya və İsrail arasında qalan dəniz bölgəsində 3,45 trilyon kubmetr qaz və 1,7 milyard barel neft ehtiyatlarının olduğu güman edilir: ”Nil Deltası hövzəsində 1,8 milyard barel neft, 6,3 trilyon kubmetr təbii qaz və eləcə də 6 milyard barel maye qaz yatağı olduğu deyilir. Bundan başqa, Kipr adası ətrafında olduğu ehtimal olunan 8 milyard barel neft yatağından başqa Krit adasının cənub və cənub-şərqində Heredot adlı yataqda 3,5 trilyon kubmetr qazın varlığından bəhs olunur. Bu isə bu günə qədər kəşf olunmuş ən böyük yataqlardan biri deməkdir. Məlumdur ki, Türkiyə milyonlarla qaçqına qucaq açıb, bölgədə terrora qarşı təkbaşına mübarizə aparır, amma bunun qarşılığında Qərbdən dəstək əvəzinə, sanksiya qərarı ilə şantaj edilir. Digər tərəfdən ABŞ-ın təzyiqləri davam etməkdədir. Bir məqamı da unutmayaq ki, gəmiyə hücum edildiyi ərazidə Fransanın təsiri böyükdür. Həmin ”dəniz quldurları”nın Fransa kəşfiyyatı ilə bağlı olduğunun ehtimal edə bilərik. Türkiyənin Şərqi Aralıqda və Afrikada atdığı addımları Qərb ölkələrini narahat etdiyi üçün belə təxribatın olma ehtimalı az deyil”.

**İsmayıl Qocayev**

# “Bu işi görənlərə “çox sağ ol” deyirik”

## “İstiqlal Zirvəsi” layihəsində milli və türk dünyasına xas simvollara üstünlük verilməsi möhtəşəmdir



Prezident İlham Əliyevin "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" sərəncamına əsasən "İstiqlal Zirvəsi" layihəsi hazırlanıb. Tanınmış novator, memar-dizayner Muxtar Ərturanın müəllifi olduğu layihəni türkiyəli və azərbaycanlı memar, dizayner və mühəndis qrupları ərsəyə gətiriblər.

Təqdimetmə mərasimində qeyd olunub ki, layihə iki dövlət, bir millətin, o cümlədən türkçülüyün rəmzidir. Novator M.Ərturan deyib ki, bu, Azərbaycan və Türkiyə mühəndislərinin birgə əməyidir. Vurğulayıb ki, nəinki səngərdə, döyüşdə, iqtisadi və ticari əlaqələrdə, həmçinin memarlıq sahəsində bir nümunə olan ”Zəfər Muzeyi” gələcək nəslə dostluğun, qardaşlığın və birliyin rəmzi kimi qalacaq. ”İstiqlal Zirvəsi” Azərbaycan bayrağının simvolları - milli atributlarımızdan olan və Türk Dünyası simvollarını əks etdirən aypara və səkkizguşəli ulduz şəklində, ultramüasir, çoxmərtəbəli bina olmaqla layihələndirilib. Bina paytaxt Bakı şəhərinin ən yüksək yerində nəzərdə tutulub. Muxtar Ərturan nəzərə çatdırıb ki, teleqüllənin qərb istiqamətində araşdırma aparıblar və həmin yerin memorial kompleksin yerləşməsi üçün məqbul olduğu qənaətinə gəliblər. Layihə bir yenilik olmaqla həm ölkə vətəndaşları, həm də əsasən xarici turistlər üçün nəzərdə tutulub. Muzey elektron və vizual tablolarla təchiz ediləcək. ”Smart voice Tablo” hər bir qonağa konkret eksponat barədə sərbəst məlumat verəcək, insansız çalışacaq. Layihədə həmçinin, müstəqillik tariximizi və İstiqlalımızı əks etdirən ”Smart kitabxana”, səsli və vizual görüntülərlə təchiz olunmuş müasir rəsm qalereyası və 3D sinemalar da nəzərdə tutulub. Bina həm də Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının Mərkəzi olacaq. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans, akt zalları və fərqli təyinatlı otaqlar yerləşəcək.

**Möhtəşəm dizayna sahib layihə barədə ”Şərq”ə danışan tarixçi-alim Boran Əzizli bildirib ki, ”İstiqlal Zirvəsi” projesi gözəl olmaqla yanaşı, olduqca vacib təşəbbüs və lazımlı ideyadır. Alimin sözlərinə görə, tarix boyu zəfərlə başa çatan bütün müharibə qəhrəmanlarına özəl abidələr, muzeylər yaradılıb:** ”Ən qədim dövrdən millətin taleyində böyük əhəmiyyət kəsb edən tarixi qələbələrin şərəfinə zəfər tağları, xüsusi memorial abidələr ucaldılıb. İnsanların öz qəhrəmanlarını anması üçün müəyyən vahid mərkəzlər yaradılıb. Bu baxımdan 44 günlük Vətən müharibəsinə həsr olunmuş və çoxşaxəli funksiya daşıyan ”İstiqlal Zirvəsi” layihəsinin hazırlanması müsbət addımdır. Bunu alqışlayır və təqdir edirik. Xüsusən, ortaq memar qrupların milli və türk dünyasına xas simvollara üstünlük verməsi, layihədə rəmzi olaraq Azərbaycan-Türkiyə qardaşlığının əks olunması, türk millətinin ən çətin anda bir-birinə dayaq durmasının simvollaşdırılması möhtəşəm incəliklərdir. Bu işi həyata keçirənlərə çox sağ ol deyirik və işlərində uğurlar arzulayırıq”.

**İsmayıl Qocayev**

## Nəşi tapılan polkovnik-leytenant dəfn edilib



**Vətən müharibəsində itkin düşən, daha sonra şəhid olduğu müəyyənləşən polkovnik-leytenant, tabor komandiri Atəm Əliyev bu gün dəfn edilib.**

“Qafqazinfo” xəbər verir ki, polkovnik-leytenant doğulduğu Ağdaş rayonunun Abad kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində rayon sakinləri, şəhidin döyüş yoldaşları, ailə üzvləri iştirak edib.

*Qeyd edək ki, 1982-ci il təvəllüdlü A. Əliyev həyatının 20 ilini Azərbaycan Ordusuna həsr edib. Vətən müharibəsində taboru ilə birlikdə Murovdağın alınmasında iştirak edib, daha sonra həmin istiqamətdə gedən döyüşlərdə itkin düşmüşdü.*

## Cəzaçəkmə müəssisələrində koronavirusdan ölən məhkum olmayıb

**“Cəzaçəkmə müəssisələrində koronavirusdan ölən məhkum olmayıb”.**

APA-nın məlumatına görə, bunu Ədliyyə Nazirliyinin 2020-ci il fəaliyyətinə həsr olunan mətbuat konfransında Nazirliyin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyin rəisi Malik Ələkbərov bildirib. Onun sözlərinə görə, Operativ Qərargahın tövsiyələrinə uyğun karantin davam edir: ”Məhkumların 96-98%-nin test nümunələrinin keçirilməsi təmin olunub. Onlardan 20-25%-i təkrar test verib. Hansısa narahatedici hallar baş verməyib”.

## DSMF sədri: “6500-dən artıq saxta əlillik işi ləğv edilib”




**“Dövlət Sosial Müdafiə Fondu tərəfindən bütün istiqamətlərdə sağlamlaşdırma işləri həyata keçirilir. Əsassız pensiyaların ləğv olunması, pensiya məbləğlərinin qanunvericiliyə uyğunlaşdırılması, digər tərəfdən isə əlilliyə görə pensiya məsələlərində hüququn yaranıb-yaranmaması məsələsi yoxlanılır”.**

Bunu APA-ya müsahibəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İdarə Heyətinin sədri Himalay Məmişov bildirib. Onun sözlərinə görə, ötən dövr ərzində 6500-dən artıq saxta əlillik işi aşkar olunaraq ləğv edilib: ”Bu işlərin illik maliyyə yükü 30 milyon manatdır. Aktuar hesablamalara əsasən müəyyən edirik ki, əgər bu ödənişlər saxlanılmasaydı, dövlət büdcəsinə təxminən 735 milyon manat həcmində əsassız şəkildə ziyan vurulmuş olacaqdı. Bu tədbirlər davam etdirilir. 2018-ci ildə pensiyanın nominal məbləğində 26 milyon manat, 2019-cu ildə 103 milyon manat, 2020-ci ildə 113 milyon manat həcmində təmizləmə aparılıb.

Əgər bu rəqəmlərə müvafiq illər üzrə indeksasiya əmsallarını da tətbiq etmiş olsaq, o zaman pensiyanın nominal məbləği üzrə ümumilikdə təmizləmənin 270 milyon manatdan artıq olduğunu görərik. Bununla da həm gəlirlərin müsbət dinamikası, həm xərclərdə aparılan optimallaşdırma işləri 2019-cu ildə 320 milyon manat vəsaitin, 2020-ci ildə isə 250 milyon manat vəsaitin dövlət büdcəsinə qaytarılmasına şərait yaradıb”.DSMF sədri: ”6500-dən artıq saxta əlillik işi ləğv edilib”

# Vaşinqtonla Moskva arasında gərginlik artacaq

## Geosiyasi maraqlar dəyişəcək, Rusiyanı ağır günlər gözləyir



"Donald Trampdan fərqli olaraq Co Baydenin insan hüquq və azadlıqlarından çıxış edərək bəzi dövlətləri təsir altına alacağı şübhəsizdir. Amma bu vəziyyət öz ölkəsində demokratik üsul-idarəsini möhkəmləndirməkdə maraqlı olan, hüququn aliliyini rəhbər tutan dövlətlər üçün narahatlıq doğurmamalıdır. Əksinə, həmin dövlətlər ABŞ-la münasibətlərini yaxşılaşdırmaq üçün bu dönəmi düzgün dəyərləndirməlidirlər".

**Bu sözləri ”Şərq” ə açıqlamasında politoloq Ramid Hüseynov deyib. Politoloq əlavə edib ki, onu da unutmaq olmaz ki, demokratiyanın dəstəklənməsi ABŞ-ın ekspansionist siyasətinin gizləndiyi mühüm vasitələrdən biridir:** ”Belə ki, bir çox hallarda geosiyasi maraqlar uğrunda mübarizədə beynəlxalq hüquqa, insan hüquq və azadlıqlarına ikili yanaşması ABŞ-ın əsl niyyətini gizlətməyə imkan verir. Deməli, Bayden hakimiyyətinin sələfindən fərqli olaraq dövlətlərə qarşı münasibətində düzəlişlər edəcəyi bütünlükdə ABŞ-ın strateji maraqlarının dəyişəcəyi anlamına gəlməməlidir. Rusiya, Türkiyə, Çin və İranla münasibətlərinə yenidən baxacağı və müəyyən korrektələr edəcəyi bu baxımdan diqqət çəkir. Əsasən də Bayden hakimiyyəti dönəmində Vaşinqtonla Moskva arasında gərginliyin arta biləcəyi ilə bağlı ehtimallar daha çox səsləndirilir. Habelə, Cənubi Qafqazdakı son olayla əlaqəli Rusiyanın geosiyasi mövqelərini möhkəmləndirməsinə, sülhməramlı qüvvələrini burada yerləşdirməsinə ABŞ-ın biganə qalmayacağı aydındır. Düzdür, böyük bir dəyişikliyə səbəb olacaq hər hansı addımın atılması müşahidə edilməsə də baş verənlərin beynəlxalq müstəviyə qaldırılmasının mümkünlüyü Kremlin nəzarətinin zəifləməsinə təsirsiz ötüşməyəcək”.

*R.Hüseynov qeyd edib ki, təsadüfi deyil ki, rəsmi Moskvanın Cənubi Qafqazdakı müharibə sonrası proseslərin beynəlxalq hüquq çərçivəsindən kənara çıxmadığını izah etməyə çalışması gözlənilən təsirlərin və sanksiyaların ola biləcəyini göz önünə aldığını göstərir:* ”Rusiya anlayır ki, Tramp dövründən fərqli olaraq onu ciddi sınaqlar gözləyir. Məhz ABŞ-dakı inaqurasiya ərəfəsində müxalifət liderinin Moskvaya qayıtması, onun həbsi və əhalinin kütləvi etiraza qalxması təsadüfi görünə bilməz. İlkin mərhələdə bunun Qərbin Rusiyaya təsir vasitəsi olaraq istifadəsi şübhə doğurmur. Azərbaycana gəlincə, onu demək olar ki, ABŞ regionda sülhün və təhlükəsizliyin olmasında maraqlıdır. O cümlədən regionun iqtisadi potensialından istifadə və region dövlətlərinin hərbi əməkdaşlığı və NATO-ya inteqrasiyasına önəm verir.

Düzdür, ABŞ-dakı erməni lobbisinin təzyiqləri Co Baydenin Azərbaycana təzyiqləri artırmasına səbəb olsa da, amma ümumilikdə münasibətlərin pisləşməsinə gətirib çıxarmayacaq. Regionun böyük potensiala malik ölkəsi ilə əlaqələri qoruyub saxlamaq fövqəldövlət üçün də zəruridir. Öz növbəsində demokratik idarəetməni, iqtisadi inkişafı prioritet hesab edən, NATO ilə əlaqələri genişləndirməyə çalışan Azərbaycan üçün ABŞ-la münasibətlərin daha da yaxşılaşdırılması maraq doğurur. Əsasən də müasir dönəm üçün hakimiyyətin siyasi iradə nümayiş etdirərək demokratiya və insan hüquqlarının qorunması istiqamətində irəliyə can atması ölkəyə qarşı bu istiqamətdə yönəlmiş bəzi beynəlxalq institutların qərəzli yanaşmasına bəhanə verməməsi üçün vacibdir. O cümlədən ABŞ-la ikitərəfli əlaqələr, hərbi əməkdaşlıq regional güclərin Azərbaycana olan təzyiqlərinin neytrallaşdırılması baxımından da əhəmiyyətlidir”.

**Aynurə Pənahqızı**



# “Rusiya qoşunlarının Qarabağdan çıxmasını tələb etməliyik”

## Vahid Qazi: “Türkiyə ilə ən yüksək hərbi saziş imzalanmalıdır”

**Qarabağa “Böyük Qayıdış”la bağlı layihənin hazırlanma mərhələsində olduğu, yaxın zamanlarda ictimaiyyətə açıqlanacağı deyilir. Ümumiyyətlə, torpaqlarımızın düşmən işğalından təmizlənməsinin, xüsusən noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın ardınca uzun illər Vətən həsrəti çəkmiş insanlarımızın Qarabağa geri dönüşü demək olar ki, hər gün müzakirə olunmaqdadır.**

Lakin “Böyük Qayıdış”ın asan proses olmadığını düşünənlər az deyil. Ümumiyyətlə, üçtərəfli Bəyanatdan sonra bölgədə yaşananlar, Rusiya sülhməramlılarının dərhal Qarabağa yerləşməsi, dağlıq rayonlarımızda ermənilərin qalması və s. mövzular hələ də ciddi müzakirə predmetidir. Təkcə ölkə daxilində deyil, xarici ölkələrdə məskunlaşmış ziyalılarımız, ələlxüsus qarabağlılar da Rusiya faktorunu önə çəkərək, təşviş doğuran məqamların qalmaqda olduğunu bildirirlər. **Qarabağdakı proseslərdən əsaslı narahatlığını ifadə edən tanınmış simalardan biri də hazırda İsveçdə yaşayan azərbaycanlı yazar, publisist, bloger Vahid Qazidir. ”Şərq”in suallarını cavablandıran ağdamlı yazar ”Böyük Qayıdış”la bağlı şəxsi fikirlərini ifadə etməklə yanaşı, qeyri-müəyyənliyini qoruyan bəzi məsələlərə də aydınlıq gətirib.**

**- Vahid bəy, 44 günlük müharibənin başa çatması xəbərinə reaksiyanız necə oldu? Hansı hissləri yaşadınız?**

- Ordumuz Xankəndinin bir neçə kilometrliyinə çatanda bir dostum ağlıma ideya saldı, təzə bir yazı başladım. Məni dostumun ideyasına ən çox ruhlandıran ordumuzun qələbələri idi. O yazıda yazacaqdım ki, Ağdamın bir-iki məhəlləsini açıq muzeyə, yerdə qalan hissəsini isə Azad İqtisadi Zonaya çevirək. Özünün beynəlxalq aeroportu, ”İmarət” adlı azından 60 minlik stadionu, otelləri, ticarət və biznes mərkəzləri olan yeni Ağdam salaq. Qafqazın Xirosimasını Qafqazın Dubayına çevirək və s. Ağdam sakinlərini də boşalmış Xankəndinə köçürək. Yəni başabaş dəyişim sona çatsın. Ermənistanda biz yoxuqsa, bizdə də erməni qalmır. Artıq hər səhər minlərlə ağdamlının yerüstü metroyla yeni Ağdama işə gəlib, axşamlar Xankəndinə evinə qayıtmasını xəyalımda canlandırırdım. Başqa qəşəng fikirlərlə ideyanı ətə-qana gətirəcəkdim. Əfsuslar ki, şər dövləti Rusiya qoymadı bitirim yazını, həmin gecə qoşun salıb Xankəndini ”tutdu”. Yazı yarıda qaldı, onu da atdım kompüterimdəki ”Yarımçıq yazılar” qovluğuna. Artıq müharibənin dayandırılmasından xeyli vaxt ötür. Amma Qarabağda vəziyyət aydınlaşmaqdansa, getgedə tündləşir. Əvvəllər qələbə ovqatında idimsə, indi özümü pat vəziyyətinə düşmüş kimi hiss edirəm.

**“Şərait yaradılsa, Avropa, başqa yerlərdə yaşayan on minlərlə ailə geri dönər. Bu insanlar qürbətdə yiyələndikləri peşələrlə, az-çox qazandıqları ilə vətənə dönərlər"**

**- Niyə pessimistsiz? Qarabağdakı gedişatın sizi qane etməyən məqamları nələrdir?**

- Açıq qalan çoxlu suallara cavab axtarmalıyıq: - Ermənilə məsələ aydındır, rusla neyləyəcəyik? Yarımçıq qalan Qarabağ davamızı Rusiya ilə necə aparmalıyıq?

Rusiyanın haradasa sülh yaratdığını tarix xatırlamır. Bütün dünyada onun sülhyaradan imici yoxdur, əksinə, Rusiya müharibəsevər ad çıxarıb. Sovet dövründə məşhur mahnı vardı, ”Xotyat li russkiye voynı”, yəni ”Ruslar savaş istəyirmi?”. Rusiyanın sülhsevər obrazını nə qədər belə propoqanda mahnılarla düzəltmək istəsələr də, o mahnıdakı suala cavab elə Rusiyanın öz tarixindədir. Son 300 ilə baxsanız, 3-5 il müharibəsiz ola, ya olmaya. İndi bu ölkənin ordusu yenidən torpaqlarımızdadır və nə qədər buradan çıxarılmayıb, təhlükə ”Domokl qılıncı” kimi başımızın üstündən əskik olmayacaq. Bu günün sualı belədir: Qarabağdakı Rusiya qoşunları ilə neyləyək, yola verək, ya işğalçı deyib üstlərinə gedək? Biz bilirdik, indi erməni görmüş 18 yaşlı gənc əsgərimiz də bilir ki, nəinki Xankəndi, tək ”Drmbon” (Heyvalı -red) kəndində belə ermənini qalması, gələcəyimiz üçün təhdiddir, növbəti münaqişə ocağıdır! Çiban deşilməyincə, sonacan gedib axırıncı ermənini sərhəddən yola salmayınca, ”başabaş dəyişim” işini bitirməyincə bizə Qarabağda gün yoxdur! Hadrutda baş verən olay hələ başlanğıcdır. Bu cür provakasiyalar çox olacaq. Keçmiş təcrübələri yada salmalı, hazırlıqlı olmalıyıq. Bizi Rusiya ilə öz torpaqlarımızda uzun mübarizə gözləyir. Dirənib onların burada mövcudluğuna son qoymalıyıq, heç 5 ilə çatmasın.

**- Bəs indiki halda işğaldan azad etdiyimiz torpaqlard a hansı addımı atmalı, hansı işləri görməliyik?**

- Məsələn, Xankəndidə ASAN xidmətin ofisini açmalıyıq. 31 marta kimi Azərbaycan vətəndaşlığını qəbul edən ermənilərə pasportumuzu verək və 1 maya qədər pasport almayanları qanundankənar elan edərək Qarabağdan kütləvi deportasiya edək. Siyasətçi olsaydım Ermənistanda Qarabağı xilas yolunda buxov, Rusiyanı avrointeqrasiya yolunda tıxac hesab edən siyasi qüvvələri axtarardım. Onlarla ilkin söhbətlərə başlayar, Qafqazı Rusiyadan azad etməyin, ondan birgə xilas olmanın gələcək konturlarından danışardım. Əlbəttə, Ermənistanda belə bir qüvvəni axtarmaq qara otaqda qara pişik axtarmağa bənzəyə bilər. Amma yaşadıqları məğlubiyyətdən sonra onların bu cür düşünən siyasətçiləri olacaq. Artıq sosial şəbəkələrdə bu cür düşünən xeyli erməni fəalının çıxışları yayılır. Fikrimcə, Ermənistanda Rusiyanı Qafqazın ”baş bəlası” sayanların başında elə Paşinyan gəlir. İndi ”Qarabağın Ermənistan üçün buxov” olduğunu düşünənlərlə işləmək lazımdır.

**- Qardaş Türkiyə bölgədə Rusiya təhlükəsini nə qədər neytrallaşdıra bilir?**

- Türkiyə ilə ən yüksək hərbi saziş imzalanmalı və türk qoşunları bizim ordumuzla bərabər Qarabağın rusda, ermənidə qalan hissəsini üzük qaşı kimi dövrələməlidir. Biz bu ölkənin insanları kimi vətəndaş mövqeyimizi sərgiləməli, Rusiya qoşunlarının Qarabağdan çıxmasını tələb etməliyik. ”Şuşaya yol Bakıdan keçir” şüarımızı ”Şuşaya yol Xankəndidən keçir”lə əvəzləməyin zamanı çatıb! Sözümün canı odur ki, 1945-ci ildə almanların, 1956-ci ildə macarların, 1968-ci ildə çexlərin dediyini biz də təkrarlayaq ”İvan, uxodi iz Karabax” *(İvan, Qarabağdan get!)* deyək!

**“Türk qoşunları bizim ordumuzla bərabər Qarabağın rusda, ermənidə qalan hissəsini üzük qaşı kimi dövrələməlidir"**

**- Hər halda Qarabağda quruculuq işləri aparılmalı, bölgədə infrastruktur qurulmalıdır. Bəs bu işin həllini necə görürsüz?**

- Dirçəlişə müasir dövrün urbanizasiya reallıqları nəzərə alınmaqla başlamalıyıq. Heç kimə sirr deyil ki, dünyada sürətlə urbanizasiya (şəhərləşmə) prosesi gedir. Kəndlər boşalır, insanlar şəhərə axışır. Bir-iki misal deyim. Rusiyada son 20 ildə 20 min kənd yox olub. Proses inkişaf etmiş ölkələrdə də belədir. İsveçdə cəmi 3 faiz əhali kənddə yaşayır, hətta bütöv kəndlər satışa çıxarılır. İşğaldan azad olunmuş ərazilərdə 800-dək kəndimiz var. Bütün bu kəndlərdə yaşayış bərpa olunacaqmı? Yaxud bərpa olunmalıdırmı? Əlbəttə, hər kəs doğulduğu kəndin bərpasını arzulayır. Amma arzu başqa, reallıq başqa. Bizim o kəndlər tarixin fərqli dönəmlərində müxtəlif səbəblərdən yaranıblar. Müasir dövrün urbanizasiya şərtləri yeni reallıqlar diktə edir. Bəzən acı, sərt olsa da. Hər yaşayış məntəqəsi tək evlərin tikilməsi demək deyil, infrastrukturun qurulmasıdır. Demək istəyirəm ki, bu yerlərdə həyat sıfırdan başlayacaqsa, urbanizasiya reallıqları nəzərə alınmalıdır. 20-30 evlik kəndlərdənsə şəhər tipli iri qəsəbələr salmaq strateji baxımdan daha düz qərar olar. Ali təhsil ocaqları, tarixi abidələr, muzeylər, turizm mərkəzləri, şərab, limonad, süd zavodları, ət kombinatları, yüngül sənaye fabrikləri, xalçasuvenir sexləri, sanatoriya-kurort müəssisələri, Avropa sayaq fermer təsərrüfatları: taxıl zəmiləri, üzüm plantasiyaları; at, qoyun, mal fermaları; nar, fındıq, qoz və s. meyvə bağları və s. Amma Qarabağ tam azad edilmədən hər il milyardlarla manatı boğazımızdan kəsib onun ətrafının bərpasına ayırmağımız da bir başqa riskdir. Pul havaya sovrulmayacaq ki?! Bu gün tikdiklərimiz sabah döyüş poliqonuna çevrilməməlidir. Nə vaxtsa dördüncü Qarabağ müharibəsinin (Yazar Birinci Qarabağ müharibəsi deyəndə Cümhuriyyət illərində Qarabağda aparılan müharibəni nəzərdə tutur -red) başlamayacağına kimsə qarantiya verirmi? Bir də heç qaranta baxanmı var, ilməsi itmiş dünyada?! Odur ki, Qarabağın yerdə qalanını da erməni və rusdan azad edək - başlayaq dirçəltməyə Qarabağı! ”Böyük Qayıdışa” və Dirçəlişə erməni-rus maneəsindən sonra ikinci böyük əngəl təpədən-dırnağa korrupsiyaya bulaşmış, oğru, quldur məmur ordusudur.

**- Ağdamlı kimi doğma yurda, Qarabağa nə vaxt qayıtmağı düşünürsüz?**

- Qarabağa qocalanda, ”ölməyə vətən yaxşıdır” deyib qayıtmaq istəməzdim.

Sözün əsl mənasında Qayıdış və Dirçəliş dövlət siyasətinə çevrilərsə, onun şəffaf mexanizmi işlənilərsə, bərpa işlərinə əhali də cəlb edilərsə, yuxarıda dediyim soyğunçu məmurlar yurdsevər dövlət adamları ilə əvəzlənərsə, Qarabağ tək mahnılarda qalmaz, real həyatda da cənnətə çevrilər. Pandemiya dövrü başa çatsın, yollar açılsın, Ağdama, Şuşaya getmək imkanı yaransın, mütləq gələcəm. 28 ildir xəyallarda yaşatdığım yerləri gəzəcəm. Çox istərdim, bu səfərdə uşaqlar da mənimlə olsunlar, onlara Qarabağı özüm göstərim. Şərait yaradılsa, Avropa, başqa yerlərdə yaşayan on minlərlə ailə geri dönər. Bu insanlar qürbətdə yiyələndikləri peşələrlə, az-çox qazandıqları ilə vətənə dönərlər. Xanımım deyir ki, yaşamağa imkan yaranarsa, Ağdamdakı məktəbimizi İsveç təhsil üslubunda yaradar, nümunə kimi göstərərdik. O, İsveç məktəbində ibtidai sinif müəlliməsidir. Özüm də bir işin qulpundan yapışa bilərəm. Baxaq, görək...

**“Xanımım deyir ki, yaşamağa imkan yaranarsa, Ağdamdakı məktəbimizi İsveç təhsil üslubunda yaradar, nümunə kimi göstərərdik”**

**İsmayıl Qocayev**

# Şuşanın necə azad edilməsi dillərə dastandır

## Ermənilər Ordumuzun qarşısında alçaldıcı məğlubiyyət yaşadıqlarını ört-basdır etməyə çalışırlar

**Rusiyanın TVC kanalının "Bilmək haqqı" verilişində erməni əsilli rusiyalı analitik Sergey Kurqinyanın həyasızca danışdığı yalanlar əvvəlcə sosial şəbəkələrdə, sonra erməni mediasında tirajlanmağa başlanılıb. Şuşanın erməni işğalından azad edilməsi faktını və Qarabağdakı son dərəcə ağır məğlubiyyəti ört-basdır etməyə çalışan erməni şərhçi iddia edib ki, guya, azad olunan Şuşaya təkrar hücum etmək istəyən erməni silahlılarına "geri çəkilmək" əmri verilib. Səbəb kimi isə şəhərə "İsgəndər"lərlə zərbə endiriləcəyi göstərilib:**



"Ermənilər geri çəkildikdən sonra Şuşanın verildiyi elan edilib". Kurqinyanın həyasızlığı o həddə çatıb ki, verilişdə Ermənistanın Qarabağa heç bir yardım etmədiyini, Qarabağda "özünümüdafiə ordusunun" döyüşdüyünü dilə gətirib. Abırsızlığın və utanmazlığın sərhədlərini aşan Kurqinyan iddia edib ki, hətta "dqr ordusu" Azərbaycan-türk ordularının hücumuna cavab vermək iqtidarında idi, yalnız Ermənistanın xəyanətkar rəhbəri Paşinyan torpaqları satmışdı və hər şey edirdi ki, Azərbaycan ordusu istəyinə çatsın. Əlbəttə, Azərbaycan Ordusunun qüdrətini həzm edə bilməyən erməni politoloqun dedikləri həyasız və əxlaqsız açıqlamadan başqa bir şey deyil. Şuşanı ən yüngül silahlarla, sıldırım qayanı dırmaşaraq azad edən Azərbaycan oğullarının inanılmaz qəhrəmanlığı haqda Şuşada olan erməni əsgərlərin özləri saysız-hesabsız açıqlamalar veriblər və bunları erməni mediası tirajlayıb. Ermənilər Azərbaycan əsgərini "robot", "terminator", hətta "ruh" adlandırıb, gördükləri qəhrəmanlığın miqyasını təsəvvür belə etmədiklərini deyiblər. Azərbaycan əsgərlərinin göstərdiyi fantastik rəşadətə kölgə salmağa çalışan Kurqinyan isə guya ermənilərin Paşinyanın əmri ilə geri çəkildiyi haqda nağıl uydurmaqla, darmadağın olmuş erməni döyüş ruhuna öz aləmində "məlhəm" qoymağa çalışır.

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə deyib ki, ermənilərin baş verənləri olduğu kimi dəyərləndirməsini gözləmək sadəlövhlükdür. Partiya rəhbərinin sözlərinə görə, bir-iki erməninin çıxmaq şərti ilə əksəriyyət, xüsusən siyasilər Azərbaycan Ordusunun qarşısında alçaldıcı məğlubiyyət yaşadıqlarını ört-basdır etməyə çalışırlar:** "Ermənilər Azərbaycanın igid əsgərlərinin qarşısından qaçdıqlarını gizlədəcəklər, məğlubiyyəti başqa cür təqdim etməyə çalışacaqlar. Əslində, 44 günlük Vətən müharibəsi sübut etdi ki, Birinci Qarabağ müharibəsində Azərbaycanla Ermənistan döyüş meydanında təkbətək qalsaydı, öz ərazilərimizi asanlıqla müdafiə edə bilərdik və düşməni geri otuzdurardıq. İkinci Qarabağ müharibəsində ermənilər əyildilər və sındılar. İndi özlərinin sınmış qürurlarını bərpa etmək üçün müxtəlif yalanlar, bəhanələr uydururlar. Erməniləri yaşamağa sövq edən məhz bu cür utopiyalar, uydurmalardır. Yüzillər boyu öz xülyalarını, yalan ideyalarını reallaşdırmaq üçün mübarizə aparıblar. "Böyük Ermənistan", "məğlubedilməz ordu" kimi əfsanələrlə ayaqda qalmağa çalışıblar. Bu cür böyük iddialardan sonra Azərbaycan Ordusunun cəmi 44 gündə ermənilərin məhv etdiyini, pərən-pərən saldığını etiraf etmək olduqca ağrılıdır".

**T.Abbaslı vurğulayıb ki, ermənilərin yeganə çıxış yolu həyasızcasına yalan danışmaq, müxtəlif nağıllar ortaya atmaqdır:** "Bu cür uydurmalarla həm də daxili auditoriyanı narahatlıqdan, ağır depressiyadan xilas etməyə çalışırlar. Ona görə də özlərindən başqa hamıda günah axtarırlar. O ki qaldı Şuşanın düşməndən azad edilməsinə, bizim üçün müstəsna əhəmiyyət kəsb edən bu tarixi yurdumuzun hansı rəşadətlə, fədakarlıq və qəhrəmanlıqla azad edilməsi dillərə dastandır. Bunu nəinki xarici ekspertlər, hətta düşmənin özü də etiraf edir. Yəqin ki, erməni politoloqun yalanlarına Ermənistanda etimad göstərən tapılmayacaq".

**İsmayıl Qocayev**



## Xırdalanda güclü partlayış baş verib

### Dağıntılar altından bir nəfərin cansız bədəni çıxarılıb, 6 nəfər isə xilas edilib



**Abşeron rayonu, Xırdalan şəhəri, 27-ci məhəllə adlanan ərazidə yerləşən və partlayış nəticəsində uçqun baş vermiş ikimərtəbəli fərdi yaşayış evində Fövqəladə Hallar Nazirliyinin qəza-xilasetmə qüvvələri tərəfindən axtarış-xilasetmə əməliyyatı aparılıb.**

Görülmüş operativ tədbirlər nəticəsində FHN-in xilasedicilərı tərəfindən dağıntı altından daha bir nəfər xilas olunaraq aidiyyəti üzrə təhvil verilib. Bununla da xilasedicilər tərəfindən xilas edilmiş vətəndaşların sayı 6-ya çatıb.

Dağıntılar altından çıxarılanların adları məlum olub.

Bunlar Musayeva Ziyafət Qafar qızı, Musayev Vüsal Firudin oğlu, 2009-cu il təvəllüdlü Musayev Firudin Vüsal oğlu, 2012-ci il təvəllüdlü Musayeva Fatimə Vüsal qızı və Gözəl Səmədovadır.

Dağıntılar altından bir nəfərin cansız bədəni çıxarılıb.

Həmin şəxsin 1988-ci il təvəllüdlü Musayeva Aytən Tacəddin qızının olduğu bildirilir.

*Abşeron Rayon Polis İdarəsindən bildirilib ki, hazırda dağıntılar altında qaldığı ehtimal olunan 1988-ci il təvəllüdlü Musayeva Aytən Tacəddin qızının axtarışları aparılır.*




## Yoluxanların sayı 100-dən aşağı düşdü

### 273 nəfər koronavirusdan sağalıb, 57 nəfər yoluxub, 11 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 57 yeni yoluxma faktı qeydə alınıb, 273 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 229 032 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 220 565 nəfər müalicə olunaraq sağalıb, 3 093 nəfər vəfat edib, aktiv xəstə sayı 5 374 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 257, ötən müddət ərzində isə ümumilikdə 2 364 809 test aparılıb.

# "Artilleriyamız daha dəqiqdir"

## İlham Tumas: "Aprel, Tovuz döyüşləri və digər hadisələr bizə xeyli təcrübə qazandırdı"

*İkinci Qarabağ müharibəsində qazandığımız qələbə şəhid Xudayar Yusifzadənin ifasındakı məşhur misralarla desək, dastana döndü. Bu qəhrəmanlıq dastanını yazan isə Azərbaycan Ordusu idi. İndi müxtəlif ekspertlər 44 günlük hərbi əməliyyatları təhlil etdikcə daxilimizdəki qürur, fəxr duyğusu daha da artır.*

"Görün, əsgərlərimiz necə böyük iş bacarıblar" deyə fərəhlənirik. Sağ olsunlar, biz məhz onların sayəsində yuxumuza belə girməyən uğuru qeyd etdik, sevinc göz yaşları tökdük.

İndi Birinci və İkinci Qarabağ müharibəsi qaziləri də rahatdırlar. Onlardan biri - hərbi jurnalist, ehtiyatda olan zabit, 44 günlük Vətən savaşının fatehlərindən olan İlham Tumasın "Şərq"ə blits-müsahibəsini təqdim edirik:

**- Vətən müharibəsindəki qələbəmizi necə qiymətləndirirsiniz?**

- Əlbəttə, bu, çox böyük və tarixi zəfərdir. Biz qərinələrdir ki, belə bir hadisəni gözləyirdik. İnşallah, bundan sonra qələbələrimizin davamı gələcək. Hələ illər əvvəl Qarabağ azad olunmadan Azərbaycanın inkişafının ləng gedəcəyi barədə yazırdım. Sağ olsun Prezidentimiz! Var olsun ordumuz! Şübhəsiz, Azərbaycan bundan sonra daha güclü olacaq.

**- Qazandığımız uğurda jurnalistlərimizin rolu nədən ibarət oldu?**

- Əslində sözügedən nailiyyət sosial və ictimai statusundan, vəzifəsindən asılı olmayaraq hər kəsin, bütöv Azərbaycan xalqının zəfəridir. Yenə fərqləndirmək istəmirəm. Lakin əlbəttə, jurnalistlərimiz də əllərindən gələni etdilər. 30-a yaxın media mənsubumuzun döyüşlərə könüllü yazılmasının özü fərəhləndirici və qürurverici haldır.

**"30-a yaxın media mənsubumuzun döyüşlərə könüllü yazılmasının özü fərəhləndirici və qürurverici haldır"**



**- İnformasiya müharibəsi ilə bağlı nə deyə bilərsiniz? Peşəkar mediamızı düşmən raketlərini məharətlə dəf edən havadan müdafiə sistemləri ilə müqayisə edə bilərikmi?**

- İnformasiya məkanında mübarizə aparmağı da tədricən öyrənirik. Aprel, Tovuz döyüşləri və digər hadisələr bizə xeyli təcrübə qazandırdı. Amma hər halda artilleriyamız daha dəqiqdir.

**- Yəqin, təsdiq edərsiniz ki, proses general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digərlərinin şəhid olması ilə başladı. Deməli, həqiqətən, mübarizə qurban tələb edir?**

- Bəli, bu, həqiqətən belədir. Bir neçə dəfə dediyim kimi, azadlıq mübarizəmiz Polad Həşimovla başladı. Cənab general öz şəhadəti ilə sanki əsgərlərinə "İrəli!" əmri verdi. Prezident İlham Əliyev də öz çıxışlarında bu məqama toxunub. Beləliklə, biz əks-hücuma başladıq və tarixi ədaləti bərpa etdik.

**- Qələbəmizi möhkəmləndirmək naminə bundan sonra nələr etməliyik?**

- Müəyyən problemlərin, boşluqların olduğunu etiraf etməliyik. Ona görə də təcili surətdə peşəkar ordu yaradılmalıdır. Bunun üçün lazımi şərait - həm kadr təminatı, həm də maddi təminat var.

**Kənan Novruzov**

# Ən böyük arzusu Qarabağı azad etmək idi





## Qardaşı Devranın döyüş yolundan danışıb

30 illik həsrətdən sonra şanlı Azərbaycan Ordusu ərazi bütövlüyümüzü bərpa etmək üçün sentyabrın 27-dən əks-əməliyyatlara başladı. 44 gün ərzində davam edən Vətən müharibəsində ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Hərbi qulluqçularımızın qanı bahasına zəfər qazandıq, tarix yazdıq. Haqqında söhbət açacağımız qəhrəmanlarımızdan biri də Vətən uğrunda gedən döyüşlərdə böyük şücaətlər göstərərk şahidlik zirvəsinə ucalan Devran Naibovdur. O, 1993-cü ildə Bərdə rayonunda anadan olub. Rayonun Nizami Gəncəvi adına 2 saylı tam orta məktəbini bitirən şəhidimiz Fizuli rayonunun Horadiz kəndində snaypera tuş gəlib və şəhadətinə qovuşub.

*Şəhidimizin qardaşı Rüstəm Naibovla həmsöhbət olduq. Ürəyində Azərbaycan boyda sevgini gəzdirərək Vətənin özünə çevrilən Devran Naibovu qardaşının xatirələri ilə yad etdik.*

**- Rüstəm bəy, qardaşınızın uşaqlığı barədə danışardınız...**

- Devran uşaq yaşlarından ağıllı, ailə qədrini bilən olub. Hər kəsi dinləyib, hamının dərdinə şərik olmaq üçün əlindən gələni edirdi.

**- Münasibətiniz necə idi, yola gedirdinizmi?**

- O mənə qardaşdan da artıq olub. Məndən yaşca balaca olmasına rəğmən, sanki ailənin ağsaqqalı idi. Devran mənə ata əvəzi olub...

**- Sizinlə sirlərini bölüşürdümü?**

- Bəli. Hərbi sirrini bölüşməzdi, amma şəxsi sirlərini bölüşürdü. Çünki biz bu həyatda bir-birimizə dayaq olmuşuq, bir-birimizə söykənərək ayağa qalxmışıq...



**- Ailədə neçə uşaqsınız?**

- Hazırda 3 uşaq. Mən, bacım və 14 yaşlı qardaşım.

**- Devranla bağlı xatirələriniz maraqlıdır...**

- Əslində qardaşımla xatirələrimiz çox deyil. Çünki mən 12 yaşından maddi vəziyyətimizlə bağlı işləmişəm, Devran isə oxuyub. Uşaq vaxtı Bərdədə Nüşabə qalasında oynayırdıq. Yadımdadır, hətta məni 3 metr hündürlükdən şüşə qırıntılarının içinə itələyib yıxmışdı...

**- Devranın ən böyük arzusu nə idi?**

- Ən böyük arzusu Qarabağı azad görmək və Xocalı soyqırımının qisasını almaq idi.



**- Onunla son dəfə nə vaxt görüşmüsünüz?**

- 2020-ci ilin iyul ayında məzuniyyətə gəlmişdi. Hətta divanda anamın dizi üstünə uzandı. Dedi ki, "Ana, mənə lay-lay de, şəhid olacam"...

**- Qarşımızdakı insan, xüsusən də doğmamız nə qədər qüsursuz olsa da, bizə görə mütləq yanlış cəhəti var. Bəs, siz Devranda nəyi dəyişmək istərdiniz?**

- Kaş ailəmizə, əsasən də anama və bacıma bu qədər bağlı olmazdı. İstəyərdim ki, onda bu xüsusiyyəti dəyişim.

**- Devran hansı xarakterli insanları sevmirdi?**

- Qardaşım içki içən, siqaret çəkən, ailəsini düşünməyən insanları heç sevmirdi. Mən siqaret çəkirdim deyə həmişə "onu çəkmə" - deyə məni danlayırdı.

**- İndi valideynləriniz necədir?**

- Yaxşı deyillər. Anam psixoloji sarsıntı keçirir, atam da onun kimi.

**- İnsanlar, qohum-qonşu acınıza şərik çıxırlarmı?**

- Bəli. Başda cənab Prezident olmaqla hər kəs acımızı bölüşür.

**- Devranla sonuncu dəfə kim danışmışdı? Danışanda vəziyyəti haqda nə deyirdi?**

- Axırıncı dəfə müharibədən bir gün qabaq danışdıq. 14 yaşında bir qardaşımız var. Anama dedi ki, qardaşımla birlikdə Bakıya getsin. Təbii ki, heç birimiz getmədik, hamımız evdə qaldıq. Anam xəstədi, həyəcanlanıb pis olmasın deyə elə demişdi. Amma müharibənin olacağını söyləməmişdi. Təkcə mən bilirdim ki, müharibə olacaq. Sentyabrın 15-dən bilirdim bunu...

**- Devran hansı istiqamətlərdə gedən döyüşlərdə iştirak edib?**

- Çox döyüşlərdə olub. 2016-cı ildə 4 günlük müharibədə veteran idi. İkinci Qarabağ müharibəsində isə əsasən Kəlbəcər, Cəbrayıl və Füzuli uğrunda gedən döyüşlərdə vuruşub. Həmçinin Murov yüksəkliyindəki qızğın döyüşlərdə də iştirak edib. Horadiz kəndinə hücum olanda Devran şəhadətinə qovuşdu.

**- Ölüm xəbərini ilk kimdən eşitdiz?**

- Evdəkilərdən başqa hamı qardaşımın öldüyünü bilirdi, tək bizim xəbərimiz yox idi. Amma oktyabrın 8-də səhər saat 6-da eşitdik...

**Söhbətləşdi:**
**Yeganə Bayramova**

# Həyatda qalmaq şansı 5 faiz olub



## Qazinin xanımı: "Məndən soruşur ki, görəsən, gəzə bilməsəm, qızlarım utanmaz?"

## Şuşa fatehini Bakıda həkimlər həyata qaytarıb

Məşhur bir deyim var: "General olmaq istəməyən əsgər döyüşçü deyil". Əlbəttə, başqa vaxtlarda artıq aforizmə çevrilmiş bu ifadənin həqiqiliyinə inanmaq olar. Amma İkinci Qarabağ müharibəsində vəziyyət fərqli idi. Heç kimi rütbə, vəzifə maraqlandırmırdı. Hər kəsin - əsgərindən generalınadək bütün hərbçiləri bircə amal düşündürürdü - Vətənin taleyi.

Həm də bu hərbi əməliyyatlarda iştirak edənlər indi elə ən yüksək rütbəli hərbçitək hörmət, ehtiram qazanıblar. Xüsusi Təyinatlı Qüvvələrin kiçik giziri Şəmsi Məmmədov da onlardandır. Yeddi ildir həyatını hərbiyə bağlayan igid döyüşçü 1994-cü il yanvarın 1-də Tovuzda anadan olub. Təhsilini tamamladıqdan sonra Xüsusi Təyinatlı Qoşunlarda fəaliyyətə başlayıb. İndi isə öz şücaəti ilə yeniyetmə və gənclər üçün nümunəyə çevrilib.

**Möcüzə nəticəsində həyatda qalan Şəmsi Məmmədovun həyat yoldaşı Lamiyə xanım cəsur hərbçi barədə "Şərq"ə bunları deyib:** "Bizim üç qızımız var. Şəmsi indiyədək çox hərbi əməliyyatlarda, o cümlədən Aprel döyüşlərində iştirak edib. Həmişə təlim adı ilə gedib. Belə gedişlərin hər birində yoldaşıma arxasında dörd qadını, üç uşağı qoyduğunu deyirdim. Cavabı konkret olurdu: "Mənim övladlarım heç bir şəhidin övladlarından artıq deyil". Əslində qəfil "təlim"lərə öyrəşmişdim.

Amma bu dəfə çağırılanda içimdə qəribə bir şübhə var idi. Həm qürur duyur, həm nigaranlıq keçirirdim. Şəhid məlumatı gəldikcə pis olurdum. Və özümü eyni xəbəri almağa hazırlayırdım.



Şəmsi sentyabrın 29-da qəlpə yarası alıb. Amma Şəmkir Mərkəzi xəstəxanasında cəmi bircə gün qaldıqdan, qəlpə çıxarıldan sonra yenidən savaşa qayıdıb. 5-10 gündən bir zəng edirdi. Deyirdim ki, yaralı gəl, hətta şəhid ol. Lakin bizə görə geridə qalma. Gülürdü. "Mən xüsusi təyinatlı döyüşçüyəm e, qorxmaq nədir, irəli gedirik" - cavabı verirdi. Doğrudan da, o, ölümün gözünün içinə dik baxırdı".

*L.Məmmədova, həmçinin deyib ki, yoldaşının sağ qalmaq ehtimalı çox az imiş:* "Oktyabrın 23-də Şuşada əlbəyaxa döyüşlərə girib və düşmənləri məhv edib. Lakin Şəmsi orda onurğasından güllə yarası alıb. Horadizə aparıb və əməliyyat ediblər. Sonra isə Bakıya gətiriblər. Bura gələndə vəziyyəti çox ağır idi. Tibb işçilərinin dediyinə görə, həyatda qalmaq şansı beş faiz imiş. Amma Tədris-Cərrahiyyə Klinikasının professoru Elçin Ağayev yoldaşımı müalicə etdi, onu ölümdən qurtardı.

Allah ailə başçımızı bizə bağışladı. Göydə Allaha, yerdə həmin həkimə minnətdaram. Amma hələ də ciddi sinir ağrıları var. Yeriyə bilmir. Xaricdə müalicə olunmalıdır. Ölkədə müalicəsi, demək olar, mümkün deyil. Hazırda Buzovnadakı reabilitasiya mərkəzindəyik. Hər birimiz onunla fəxr edirik. Məndən soruşur ki, görəsən, gəzə bilməsəm, qızlarım utanmaz?





Amma əminəm: Şəmsi hər birimizin onunla ömür boyu fəxr edəcəyimiz qəhrəmanlıq göstərib. Mən yoldaşımla həmişə fəxr edəcəm, əmin ola bilərsiniz!".

**Kənan Novruzov**

# Rusiya "suyu bulandırır"



## "Rəsmi Moskva öhdəliklərinə əməl etməyəcəyi təqdirdə, Türkiyə və Azərbaycan 11 yanvar anlaşmasının reallaşmasına imkan verməyəcək"

Nə Rusiyanın Ermənistanı tam məhv olmaqdan xilas etdiyi 10 noyabr razılaşmasında, nə də Rusiyanın öz forpostunu blokadadan çıxarmağa çalışdığı 11 yanvar bəyanatlarında Qarabağa hər hansı statusun verilməsi, erməni silahlılarının Azərbaycan ərazisində qalması barədə bənd yoxdur. Rusiya sülhməramlılarının missiyası isə hansısa silahlı qrupun Ermənistandan Azərbaycana soxulmağının qarşısını almaqdan ibarət olmalıydı.

Lakin hərbi əməliyyatlar yekunlaşdıqdan sonra Qarabağa göndərilmiş terrorçu qruplar bir neçə təxribata cəhd etdilər. Müzəffər ordumuzun işğaldan azad etdiyi ərazilərdə noyabrın sonu, dekabrın əvvəlində Ermənistandan məqsədyönlü şəkildə göndərilmiş 62 nəfərdən ibarət erməni terrorçu-diversant qrupu saxlanılaraq istintaqa təhvil verildi. Rəsmi məlumatlara görə, saxlanılanların hər biri noyabrın 26-da Ermənistanın Şirak vilayətindən hərbi xidmət adı ilə çağırılaraq xüsusi terror təlim keçirilib. Onlar Azərbaycan Silahlı Qüvvələrinin üzvlərinə və mülki əhaliyə qarşı terror aktları törətmək məqsədilə bu ərazilərə yeridilib.

**Bu barədə "Şərq"ə danışan siyasi analitik Züriyə Qarayevanın sözlərinə görə, diversiya cəhdləri nəticəsində itkilər vermişik:**

"Bəs 10 noyabr bəyanatı və hərbi əməliyyatların dayandırılmasından sonra bu terrorçular Azərbaycan ərazisinə niyə göndərilmişdi? Həqiqət budur ki, Ermənistanın xəyal etdiyi status bəyannamədə olmadığından, hər cür manipulyasiya ilə bu "status" imicini formalaşdırmağa çalışırlar. Silahlı diversantların Qarabağın ermənilər yaşayan bölgəsinə qanunsuz gətirilməsi, Ermənistanın yüksək çinli məmurlarının Xankəndiyə qanunsuz səfərləri, alban monastırlarını qanunsuz olaraq

> "Habelə rəsmi Moskvanın forpostu ilə heç bir nəqliyyat və iqtisadi əlaqə yaradılmayacaq"

özlərinin dini ayin ocaqları kimi təqdim etmə cəhdləri və Madrid prinsiplərini qabartmaları sözügedən senarinin tərkib hissələridir. Halbuki, separatçıların qondarma liderlərini İrəvana da çağıra bilərdilər. Həmçinin silahlıların oraya gətirilməsi noyabr bəyannaməsinə ziddir, Azərbaycanın və Rusiyanın arxiv sənədlərində ermənilərin özününküləşdirdikləri monastırlar alban məbədləri kimi göstərilir, Madrid prinsiplərinin "bufer zona" adlandırdıqları hissəsini şanlı ordumuz artıq həll edib. "Dəhliz" məsələsini isə münaqişə tərəfləri qismən qəbul etmədiyindən onların üzərinə heç bir məsuliyyət qoyula bilməz...".

**Ekspert, həmçinin hərbi əsirlərlə bağlı məsələyə də toxunub:**

"Bu gün Ermənistan mediasında müxtəlif fikirlər və ziddiyyətli rəqəmlər səsləndirən rəsmilər həmin terrorçulardan fərqli məqsədlər üçün istifadə etməyə çalışırlar. Ermənistanın bəzi rəsmiləri 62, Serj Sarkisyanın kürəkəni Mikael Minasyan 115, keçmiş təhlükəsizlik naziri Davi Şahnazaryan isə 235 nəfərin saxlanıldığını iddia edir. Hətta sosial şəbəkələrdə ermənilərin yazdıqlarına görə, 500-dən artıq erməni hərbçi saxlanılıb. Azərbaycan müxtəlif rəsmi səviyyələrdə açıq şəkildə bəyan edib ki, üzərinə götürdüyü öhdəliyə uyğun olaraq dekabrın 14-də 44 erməni hərbi əsiri "hamını hamıya" prinsipi ilə qarşı tərəfə təhvil verib. Bu gün Ermənistanın azad olunmasını istədikləri şəxslərin isə hərbi əsirlərlə bağlı heç bir əlaqəsi yoxur. Həmin şəxslərin Azərbaycan ərazisinə müharibə zamanı yox, hərbi əməliyyatlar bitdikdən sonra göndərildiklərini Rusiya rəsmiləri də təsdiq edir. Rusiya Xarici işlər naziri Sergey Lavrov bildirib ki, noyabrın sonunda erməni hərbçilərindən, çağırışçılardan ibarət böyük bir qrup ora göndərilib və onlar - 62 nəfər dekabrın əvvəlində əsir düşüblər. Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il tarixli Cenevrə konvensiyalarının müddəalarına əsasən, konkret cinayət əməli törətmiş terror təxribat qrupunun üzvləri hərbi əsir hesab edilə bilməzlər. Beləliklə, Ermənistanın manipulyasiya etdiyi və geri qaytarılmasını istədiyi şəxslər hərbi əsir sayılmırlar".

*Z.Qarayevanın fikrincə, 11 yanvar bəyanatının şərtlərinə əməl edilməməsi ən çox düşmənin ziyanınadır:* "Sülhməramlı missiyasının 10 noyabr bəyanatındakı tələblərini yerinə yetirməkdə maraqlı olmayan Rusiya 11 yanvar bəyannaməsinin də yerinə yetirilməsini gözləməməlidir. Unutmayaq ki, Qərbə inteqrasiyaya meyli olan Gürcüstan öz ərazisini Rusiyaya bağlaya bilər. Kremlin üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi fonunda rəsmi Ankaranın da Mehri dəhlizi üçün eyni statusu, yəni Rusiya və Ermənistanın nəzarəti olmadan gediş-gəlişin təmin olunmasını istəməsini tam təbii və haqlı qarşılamaq lazımdır. Görünən odur ki, Rusiya öhdəliklərinə əməl etməyəcəyi təqdirdə, Türkiyə və Azərbaycan 11 yanvar anlaşmasının həyata keçməsinə imkan verməyəcək. Habelə rəsmi Moskvanın forpostu ilə heç bir nəqliyyat və iqtisadi əlaqə yaradılmayacaq.

Belə gedişat isə rəsmi İrəvanı heç bir şəkildə qane edə bilməz. Çünki Paşinyan hakimiyyəti Ermənistanı xilas etməyin yeganə yolunu haqlı olaraq qonşu ölkələrlə əməkdaşlıqda görür".

**Kənan Novruzov**

## "Rusiyada koronavirusla bağlı vəziyyət sabitləşir"

### Putin deyin ki, məhdudlaşdırılmalar aradan götürülə bilər



**Rusiyada koronavirusla bağlı vəziyyət sabitləşir. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya prezidenti Vladimir Putin "Tatyanin den" münasibəti ilə ali məktəb tələbələri ilə videokonfrans formatında keçirdiyi görüşündə bildirib.**

Onun sözlərinə görə, ölkədə koronavirusla bağlı vəziyyətin sabitləşməsi tətbiq olunmuş məhdudlaşdırılmaların aradan götürülməsinə imkan yaradır.

*Qeyd edək ki, Rusiyada son sutka ərzində 19 290 nəfər COVİD-19 virusuna yoluxub. Bu göstərici ötən ilin noyabr ayından bu günə kimi qeydə alına ən az yoluxma halıdır.*

## Türkiyə və Yunanıstan arasında danışıqlar olub



**Türkiyə və Yunanıstan arasında danışıqlar baş tutub.**

APA-nın yerli bürosunun xəbərinə görə, Türkiyə Xarici İşlər Nazirliyinin (XİN) yaydığı məlumatda bildirilib ki, tərəflər Egey və Şərqi Aralıq dənizi ilə bağlı, eləcə də digər regional məsələlərlə bağlı müzakirələr aparıblar.

Görüş bu gün İstanbulda yerli vaxtla saat 11:00-da başlayıb. Türkiyə nümayəndə heyətinə xarici işlər nazirinin müavini Sedat Önal rəhbərlik edib. Türkiyə Prezident Administrasiyasının sözçüsü İbrahim Kalın və Türkiyə XİN-in İkitərəfli Siyasi Əlaqələr və Dənizçilik, Aviasiya, Sərhəd Baş direktoru, səfir Çağatay Erciyes də danışıqlarda iştirak edib.

# Baş rolda ABŞ-dır

## Navalnı post-Putin dövrü üçün hazırlanan bir liderdir



Rusiyanın paytaxtı Moskvada və digər şəhərlərdə müxalifətçi Aleksey Navalnının həbsi kəskin etirazlara səbəb olub. Artıq 3 gündür ki, Rusiyanın bütün bölgələrində kütləvi etiraz aksiyaları keçirilir. Nümayişçilərin əsas tələbi Navalnının azadlığa buraxılmasıdır. İlk mitinq ölkənin Uzaq Şərqdəki Xabarovsk şəhərində başlayıb.

Etirazçılar "Biabırçılıq", "Navalnıya azadlıq" və ölkə Prezidenti Vladimir Putinin əleyhinə şüarlar səsləndiriblər. Artıq yüzlərlə nümayişçi saxlanılıb, onlarla vətəndaşın həbs edildiyi deyilir.

Rusiyanın İctimai Nəzarət Komissiyasının icraçı katibi İvan Melnikovun məlumatına görə, 600-dən çox mitinq iştirakçısı saxlanılıb. Qeyri-rəsmi mənbələr isə bu rəqəmin 2501 nəfər olduğunu bildirir. Ən çox saxlanılanlar Moskva və Sankt-Peterburq şəhərindəndir. ABŞ Rusiya müxalifətinin keçirdiyi aksiyalara reaksiya verib.

ABŞ-ın Rusiyadakı səfirliyi yaydığı rəsmi məlumatda baş verənləri diqqətlə izlədiklərini açıqlayıb: "Rusiyanın 38 şəhərində etiraz aksiyalarını diqqətlə izləyirik. ABŞ olaraq, bütün insanların dinc aksiyalar keçirmək və öz fikrini ifadə etmək azadlığını dəstəkləyirik". Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov isə icazəsiz aksiyalar barədə ABŞ-ın Moskvadakı səfirliyinin yaydığı açıqlamanı Rusiyanın daxili işlərinə müdaxilə kimi dəyərləndirib.

Fransa və Çexiyanın xarici işlər nazirləri də Avropa İttifaqı ölkələrinin XİN rəhbərlərinin iclasında rusiyalı siyasətçi Aleksey Navalnının həbsindən dolayı rəsmi Moskvaya sanksiya tətbiq edilməsinin tərəfdarı olduqlarını bildiriblər. Fransa XİN rəhbəri Jan İv Lö Drian Navalnının həbsini olduqca pis siqnal adlandırıb.

Çexiyalı nazir Tomaş Petrşiçek də iclasda Navalnının həbsi ilə əlaqəli şəxslərə sanksiya tətbiq edilməsinin lehinə olduğunu söyləyib. Bundan əlavə, Polşa Prezidenti Andjey Duda da Rusiyaya sanksiyaları gücləndirməyin tərəfdarı olduğunu deyib.

**Moskvadakı xaos və gərgin durum barədə "Şərq"ə danışan politoloq Əhəd Məmmədli bildirib ki, baş verən proseslər yüksələn dalğa ilə gedir:** "Artıq Navalnı rus protest elektoratının bir rəmzinə, liderinə çevrilib. Düzdür, aksiyaya çıxanların hamısı Navalnını sevmir, amma Putin hakimiyyətinə etiraz edənlər məhz onun ətrafında birləşir, çağırışlarını yerinə yetirir və ona azadlıq tələb edirlər.

İllərdir ki, Navalnının çağırışları ilə meydanlara tökülüşürlər, etirazlar edirlər.

Amma Rusiyadakı əhali istənilən səviyyədə aksiyaya çıxmayıb. Lakin artıq proses başlayıb və Navalnı post-Putin dövrü üçün hazırlanan bir liderdir.

Təbii ki, bu lideri ABŞ hazırlayıb. Rusiya tarixinə baxsaq görərik ki, hər dəfə inqilabi dəyişikliklər olub. İndi də Rusiyada növbəti inqilabın anonsları verilir, biz bunu görürük".

**Yeganə Bayramova**

## Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ayvazyan səfərlərindən dərs götürməlidir...

## Erməni XİN başçısının mövqeyi yanlış olmaqla bərabər, həm də təhlükəlidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Müharibə nəticəsində hər sahədə ağır məğlubiyyətə düçar olan Ermənistan hökuməti təxribatçı davranışlardan əl çəkmir. Xüsusən, Ermənistanın yeni Xarici işlər naziri Ara Ayvazyan səfərləri və görüşləri çərçivəsində artıq müzakirə predmeti olmaqdan çıxmış köhnə, lazımsız məsələləri israrla gündəmə daşıyır. Hər fürsətdə Azərbaycanı ittiham edərək, ATƏT-in Minsk qrupunun və digər beynəlxalq qurumların proseslərə müdaxiləsinin zəruriliyindən dəm vurur.

Ötən həftə XİN başçısı Ayvazyan Minsk qrupunun həmsədr ölkələrinin səfirlərini qəbul edərkən də absurd təklif və ittihamlarını sıralayıb. Müharibədən sonrakı vəziyyəti "müzakirə" edən tərəflər Qarabağda sülhyaratma prosesində həmsədrlərin yenidən iştirakının vacibliyini qeyd ediblər. Bundan başqa, erməni nazir Xankəndidəki ermənilərin hüquqlarının qorunmasını, təhlükəsizlik və onlara humanitar yardım məsələlərini gündəmə gətirib. Ayvazyan nizamlamadakı əsas prinsiplərin reallaşdırılmasının vacibliyini deyib və bu zaman məsələyə "Dağlıq Qarabağ xalqının öz müqəddəratını təyin etməsi" kontekstindən yanaşıb. Ermənistan XİN rəhbəri 10 noyabr üçtərəfli bəyanatın üzərinə gələrək hərbi əsirlərin, girovların və digər saxlanılmış şəxslərin geri qaytarılmasından da söz açıb. Beynəlxalq təşkilatların, xüsusən BMT-nin və onun xüsusi agentliklərinin təmsilçilərinin maneəsiz olaraq əraziyə cəlb edilməsinin önəmi vurğulanıb. Ara Ayvazyan həmçinin diqqəti Azərbaycanın nəzarəti altında olan ərazilərdəki erməni mədəni-tarixi və dini irsinin saxlanılmasının aktuallığına yönəldib və iddia edib ki, guya, Azərbaycan onların məhvinə çalışır.

Heç şübhəsiz, hazırda Xankəndidəki ermənilərin təhlükəsizliyinə hər hansı təhdid yoxdur. Azərbaycanın paytaxtı Bakı şəhərində 30 minə yaxın erməni yaşayır ki, onlar da yerli sakinlərlə bərabər hüquqlara malikdirlər. Üstəgəl, Qarabağdakı rus sülhməramlıları ermənilərin hüquq və təhlükəsizliyini təmin edir. Bundan başqa, hökumətimiz dəfələrlə bəyan edib ki, ölkəmizin qanunlarını, Azərbaycanın vətəndaşlığını qəbul edən ermənilər orada sərbəst şəkildə yaşaya bilərlər. Əsir və girovların "hamının hamıya" prinsipi ilə qaytarılması məsələsinə gəldikdə isə rəsmi Bakı dəfələrlə bəyan edib ki, 10 noyabrda Ermənistanın kapitulyasiya sənədinə imza atmasından sonra Qarabağa gizli yollarla keçib Azərbaycan əsgərlərinə silahlı basqın edən ermənilər terrorçudur. Onların "hərbi əsir" adı ilə geri qaytarılmasından söhbət belə gedə bilməz. Azərbaycan tərəfi həmin şəxslərin terrorçu olmasına dair tutarlı faktları beynəlxalq təşkilatlara təqdim edib.

Görünür, ermənilərin siyasi hakimiyyətinin ən böyük bəlalarından biri başlarına gələn hadisələrdən nəticə çıxara bilməmək bacarıqsızlığıdır. Yerevan hökumətləri qonşulara qarşı nankorluğu ilə dünyada "məşhurlaşıblar". Azərbaycan tərəfi 44 günlük müharibə və güclü diplomatiyası ilə düşmənə mövcud reallıqları, məhz işğalçılıq siyasətinin və ərazi iddialarının Ermənistanı siyasi-iqtisadi blokadaya saldığını göstərməyə çalışdı. Belə çıxır ki, Yerevan hakimiyyəti baş verənlərin real mahiyyətini və Ermənistanı hara aparacağını buvaxtadək anlaya bilməyib. Bu ölkə ya özündə hünər tapıb ayağa qalxmağı bacarmır, ya da düşdüyü vəziyyətin nəticəsini dərk etmir. Xatırladaq ki, Ermənistanın köhnə təxəyyülü yeni Xarici işlər naziri Ayvazyan Moskvada Rusiya XİN rəhbəri Sergey Lavrovla görüşü zamanı da "Ermənistan Artsaxda xalqların öz müqəddəratını təyinetmə hüququ mövqeyindən çıxış etməkdə israrlıdır" demişdi. Ayvazyan israrla bildirmişdi ki, "Dağlıq Qarabağ münaqişəsi"nin əsasında "Artsax xalqı"nın "özünütəyinetmə" məsələsi durur. Əvvəllər də qeyd edirdi ki, Qarabağ münaqişəsinin uzunmüddətli nizamlama prosesi Minsk qrupunun himayəsi altında danışıqlar yolu ilə həll olunmalıdır. Erməni nazirin əksinə olaraq Sergey Lavrov öz açıqlamasında real vəziyyətdən çıxış edərək bildirib ki, biz indi-indi Dağlıq Qarabağ münaqişəsinin qaynar mərhələsindən çıxırıq: "Rusiya, Azərbaycan və Ermənistan dövlət başçılarının imzaladığı və müharibəni dayandırmış 10 noyabr bəyanatının əhəmiyyətini hamı etiraf etmək məcburiyyətindədir". Təbii ki, məcburiyyət sindromu Ayvazyana da aiddir. İstisna deyil ki, erməni nazir öz ölkəsinin auditoriyası üçün bu ifadələrdən istifadə edir. Lakin prosesə başqa prizmadan yanaşanda məsələnin əksini də görmək mümkündür. Ayvazyan Moskvada bəyan edir ki, Dağlıq Qarabağda situasiya sabitləşəndən sonra İrəvan və Bakı danışıqlar stolu arxasında əyləşə bilər. Onun bu sözlərindən sonra Fransanın Azərbaycandakı səfiri Zakari Qross bəyanat verərək bildirir ki, sülhə hazırlaşmağın, nifrətə son qoymağın və regionda etimadı, tərəqqini və sabitliyi möhkəmləndirməyin vaxtıdır: "Azərbaycan Dağlıq Qarabağa bitişik yeddi rayon və Şuşa şəhərini qaytarıb. Hər iki tərəfdən çox sayda insan həlak olub. Birgə yaşamanın yeni formaları tapılmalıdır. Çağırışlar və perspektivlər olacaq". Bəyanatın ruhundan belə nəticə çıxır ki, Azərbaycanın döyüşlə yox, hərbi-diplomatik səylərlə azad etdiyi ərazilər hələ də "ermənilərə məxsusdur". Məhz bu cür ikibaşlı yanaşmanın sayəsində Ermənistanın XİN rəhbəri köhnə xülyalar müstəvisində çıxış edir. Baxmayaraq ki, onun fəallığı "özü çalıb, özü oynayır" hökmündən o yana keçmir. Görünür, Fransa tərəfdən eyhamlı bəyanatların verilməsi Ayvazyanı ürəkləndirir. Ayvazyan daha da irəli gedərək Türkiyə silahlı qüvvələrinin regiondan uzaqlaşdırılmasını tələb edir. Lakin son vaxtlar Fransa tərəfdən atılan addımlar göstərir ki, rəsmi Parisin məsləhətləri heç də Cənubi Qafqazda dincliyə yönəlmiş addımlarla həmahəng deyil.

> "Münaqişə artıq bitib və bölgədə yeni reallıqlar formalaşıb. Bu reallıqları uzun zaman işğalçı Ermənistanı müdafiə edən kənar dövlətlər də etiraf edirlər"

**Ermənistan Xarici işlər naziri Ara Ayvazyanın xülyalarını "Şərq"ə şərh edən "Bakı Politoloqlar Klubu"nun rəhbəri, siyasi elmlər namizədi Zaur Məmmədov bildirib ki, Ayvazyanın son açıqlamaları onunla Baş nazir Nikol Paşinyan arasında fikir ayrılıqlarının olduğunu göstərir. Siyasi təhlilçinin sözlərinə görə, Paşinyanın Şuşa etirafları, region ölkələri ilə əməkdaşlıqdan danışdığı bir dövrdə XİN rəhbərinin təxribatçı ritorika sərgiləməsi başqa siyasi məqsədlərdən xəbər verir:** "Ayvazyanın hansı ölkəyə yaxın olduğu bizə məlumdur. Görünür, elə həmin dövlətdən aldığı təlimatla ortalığı qarışdırmağa, regionda gərginliyi artırmağa çalışır. Anlamaq lazımdır ki, bundan sonrakı istənilən təxribatçı addım, davranış və açıqlama birbaşa Ermənistanın ziyanına olacaq. Yerevan hökumətinin qazancı olmayacaq, əksinə, əlində qalanları da uduzacaq. Yeni nazirin absurd iddia və ittihamlardan uzaq durması ermənilər üçün daha məqsədəuyğundur. XİN rəhbəri özündən əvvəlki nazirlərdən dərs götürməli və sələflərinin 30 il ərzində davamlı səsləndirdikləri müharibə ritorikasının sonda nə ilə nəticələndiyini unutmamalıdır".

*Politoloq vurğulayıb ki, Ayvazyan populist bəyanatlar verərək erməni ictimaiyyətinin başını qatmağa çalışır:* "O, münaqişənin hələ yekunlaşmadığını, erməni tərəfinin iddialarının təmin olunmadığını iddia edir. Kimin hansı tərəfdən baxmasının heç bir əhəmiyyəti yoxdur. Münaqişə artıq bitib və bölgədə yeni reallıqlar formalaşıb. Bu reallıqları uzun zaman işğalçı Ermənistanı müdafiə edən kənar dövlətlər də etiraf edirlər. Əgər Yerevan hökumətinin təmsilçiləri, xüsusən yeni nazir öz illüziyalarından əl çəkməzsə, onları da məğlub siyasilərin acı aqibəti və xalqın qəzəbi gözləyir. Paşinyan hakimiyyətini gücləndirmək istəyirsə, Ayvazyanla bağlı vaxtında ölçü götürməlidir. Ancaq problem ondadır ki, Ermənistanda Xarici İşlər Nazirliyi və güc strukturları Rusiya paytaxtından gələn əmr və təlimatlar əsasında fəaliyyət göstərir. Bu da baş nazirin əl-qolunun bağlanması anlamına gəlir".

**Politoloq Tofiq Abbasov da "Şərq"ə deyib ki, Ermənistanın qatarı çoxdan gedib. Ekspertin fikrincə, Ara Ayvazyanın fəaliyyəti iki istiqamətdə özünü göstərir. Ermənistan xarici işlər naziri köhnə və dağılmış bazarda yeni "islahat" cəhdlərinə təşəbbüs edir. Digər tərəfdən isə artıq çoxdan stansiyadan uzaqlaşmış qatarın ardınca təngnəfəs qaçaraq özünü yetirməyə çalışır:** "Normal düşüncəyə malik diplomatın əsas missiyası real vəziyyəti düzgün qiymətləndirməyi bacarmaqdır. Prosesləri doğru qiymətləndirməməyin nəticəsini yaxından görmüş bir ölkənin təmsilçisi isə hazırkı durumu daha aydın sezməlidir. Ayvazyan ilk növbədə özünü, daha sonra erməni xalqını aldatmaq yolunu tutub. Həm də onun siyasəti Baş nazir Nikol Paşinyanın indiki siyasətinə ziddir. Paşinyan son günlər ümidverici bəyanatlar səsləndirir. Azərbaycanla Türkiyənin Ermənistana əməkdaşlıq platforması təklif etdiyini bildirən baş nazir Yerevanın bununla razılaşmalı olduğunu söyləyir. Bu cür açıqlama fonunda onun kabinetini təmsil edən XİN rəhbərinin tərs-mütənasib mövqe sərgiləməsi və qıcıq doğuran bəyanatlar verməsi Ermənistanın özünü çıxılmaz duruma salır. Ayvazyan Qarabağ məsələsinin yarımçıq qaldığını, daha doğrusu, ermənilərin ziyanına həll edildiyini vurğulayır".

**T.Abbasovun qənaətincə, XİN başçısının mövqeyi yanlış olmaqla bərabər, həm də təhlükəlidir:** "Sağlam düşüncəli diplomat bu cür oyunbazlığa getməməlidir. Əks halda növbəti dəfə sərt cavablarını alacaqlar. Azərbaycan 44 günlük müharibədən sonra tam hüquqlu söz sahibidir. Rusiya da rəsmi Bakı ilə sıx təmasdadır və bütün prosesləri Azərbaycanla razılaşdırır. Bu, təbiidir, çünki, son sözü qalib tərəf deməlidir. Biz isə deyirik ki, "status" və "xalqların öz müqəddəratını həll etmək" məsələləri artıq gündəmdən çıxıb və heç vaxt müzakirə mövzusu olmayacaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Rusiyanın hegemonluğu Qara dənizdə zəifləyir

Türkiyə Cümhuriyyəti Hökuməti Gürcüstan Müdafiə Qüvvələrinə lazer məsafəsi və bir sıra mühəndis avadanlığı təqdim edib. Bu barədə Gürcüstan Müdafiə Nazirliyi məlumat yayıb. Məlumata əsasən, mühəndis avadanlığı və texniki vasitələrin təhvil verilməsinin rəsmi tədbiri Gürcüstan Müdafiə Nazirliyinin "Armihol" binasında baş tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, qəbul aktını Gürcüstan Müdafiə Qüvvələri Baş Qərargahının Strateji Planlaşdırma İdarəsinin rəisi, polkovnik İoseb Nikoleişvili və Türkiyə tərəfinin hərbi attaşesi polkovnik Burak Altıner imzalayıb.

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, Gürcüstanla Türkiyənin hərbi əlaqələrinin güclənməsi dolayısıyla Rusiyanın hegemonluğunu Qara dənizdə azaldır.** Politoloq vurğulayıb ki, Türkiyə donanması dünyada ən güclü donanmalardandır: "Düşünürəm ki, müasir nöqteyi-nəzərdən Türkiyə bu regionlarda daha güclü tərəfdən özünü göstərir. Ona görə də Qara dənizdə fövqəl ölkələri ilə əlaqələrin möhkəmlənməsi Türkiyənin geosiyasi maraqlarına xidmət edir. Ayrıca Qafqazda Türkiyənin mövcudluğu möhkəmləndikcə əlbəttə ki, Ankaranın Qafqazda gedən bütün proseslərdə iştirakına birbaşa zəmin yaradır. Çünki artıq Rusiya da o



## Gürcüstanla Türkiyənin hərbi əlaqələri mühüm hadisədir

reallığı qəbul etmək məcburiyyətində qalıb. Xüsusilə Qarabağ Vətən müharibəsində Türkiyənin Azərbaycana dəstəyi, o cümlədən masa müzakirələrində dəstəyi ilə Rusiya bir çox şeyləri qəbul etmək məcburiyyətində qaldı".

**N.Miri qeyd edib ki, Rusiya bütün zamanlarda gücü qəbul edib:** "Rusiyanın qəbul elədiyi yeganə dil yalnız hərbi gücdür. Bu gücü Türkiyə Suriyada və Liviyada barış şəklində ona göstərdi. Türkiyə Rusiyanın hərb maşınını demək olar ki, bu iki bölgədə, həm Liviyada, həm də Suriyada darmadağın etdi. Artıq getdikcə güclənən Türkiyə amili mövcuddur. Gürcüstan-Türkiyə əlaqələrinin hərbi cəhətdən güclənməsi də əlbəttə ki, Türkiyənin mövqelərini gücləndirən, Rusiyanın mövqelərini zəiflədən tərəfdir. Bildiyiniz kimi, Rusiya Cənubi Qafqazda bu gün yalnız müəyyən mənada Ermənistanda güclüdür. İctimai rəydə çox kövrəkdir. Bu gün erməni gəncliyi Rusiyanın hərbi cəhətdən Ermənistanda varlığını qəbul etmir, bu da Rusiyanın geosiyasi maraqlarına çox böyük təhlükə yaradır. Buna görə də, düşünürəm ki, Türkiyənin getdikcə Cənubi Qafqazda güclənməsi Rusiyanın gələcək perspektivdə Cənubi Qafqazda sıxışdırılmasına yönəlik bir koridordur. Ona görə də Gürcüstan-Türkiyə əlaqələrinin güclənməsini dəyərləndirmək lazımdır".

**Aynurə Pənahqızı**

## "Yarımçıq əlyazma"nın Almaniya həyatı başladı




**Xalq yazıçısı Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı Almaniyada çap olunub.**

Bu barədə kitabın redaktoru, Almaniyada yaşayan həmyerlimiz, yazıçı-araşdırmaçı Orhan Aras məlumat verib. O, bildirib ki, roman türkoloq Herman Kielin tərcüməsində işıq üzü görüb.

"Amazon", "Booklooker", "Buchkatalog.de", "Thalia.de" kimi böyük kitab satış saytlarında "Das Unvollstandige manuskript" adı ilə alman oxucularına təqdim olunan roman "Epubli" nəşriyyatında işıq üzü görüb.

Kitabın rəssamı Soltan Soltanlıdır. Nəşriyyat "Yarımçıq əlyazma" romanını "Alman oxucu bu romanda Şərqin özünəməxsus rəngini görəcək və fərqli bir tarixi dövrünə şahidlik edəcək" təqdimatı ilə oxucuların ixtiyarına verib.

Qeyd edək ki, 2020-ci ildə yazıçının "Sehrbazlar dərəsi" romanı da Almaniyada yayımlanıb.

Kamal Abdullanın ədəbi-bədii irsində vacib yer tutan roman yaradıcılığı "Yarımçıq əlyazma" ilə başlayıb. Müasir Azərbaycan ədəbiyyatında hadisə sayılan, ədəbiyyatşünas, mədəniyyətşünas və tənqidçilərin bədii-estetik səviyyəsinə, ədəbi siqlətinə görə yüksək nümunə kimi dəyərləndirdiyi bu əsər Bakıda ilk dəfə 2004-cü ildə çap olunub.

"Yarımçıq əlyazma"nın ədəbi taleyi təkcə Azərbaycanla bağlı olmayıb. Çap olunduğu ölkələrin sayına görə dünya ədəbiyyatının həqiqi faktına çevrilən roman - Fransa, Rusiya, Türkiyə, Braziliya, Polşa, Misir, Amerika, Qazaxıstan, Avstriya, Qırğızıstan, İtaliya, Gürcüstan, Monteneqro və Yaponiyada çap olunub.

Azərbaycanda tənqidçilərin müxtəlif müzakirə və mübahisələrinə səbəb olan, ətrafında çeşidli ədəbi qalmaqallar yaranan bu əsər 2007-ci ildə "525-ci qəzet"in "İlin romanı", Nəsimi Milli Ədəbiyyat Müsabiqəsinin "Son 10 ilin ədəbi əsəri", 2007-ci ildə "Humay" mükafatlarına layiq görülüb. 21 sentyabr 2015-ci ildə "Yarımçıq əlyazma" İtaliyanın ən böyük fondlarından biri Rikardo Tanaturri Fondunun təsis etdiyi "Scanno" mükafatının ("Skanoprize") ədəbiyyat üzrə xüsusi prizini ölkəmizə gətirib.

Xüsusilə qeyd etmək lazımdır ki, bu əsər çap olunduğu xarici ölkələrdə uğurlu nəşr həyatı yaşayaraq müxtəlif illərdə Fransada (2003, 2005), Türkiyədə (2006, 2014), Rusiyada (2006, 2013), İtaliyada (2014, 2015) təkrar çap edilib.

# Sahə üzrə ekspertlər kənarda qalıb

## "Ali təhsil haqqında" qanun layihəsinin müzakirəsində məmurlar, millət vəkilləri iştirak edir"

"Ali təhsil haqqında" Azərbaycan Respublikası Qanunu layihəsinin hazırlanması məqsədi ilə yaradılmış İşçi Qrupunun videokonfrans formatında görüşü keçirilib. Videokonfransda Təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, müvafiq dövlət qurumlarının nümayəndələri, ali təhsil ocaqlarının rəhbərləri və ekspertlər iştirak ediblər.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, İşçi Qrupun rəhbəri Bəxtiyar Əliyev bildirib ki, bu, İşçi Qrupunun ilk iclasıdır. Bəxtiyar Əliyev bugünkü iclasın məqsədinin təhsil sahəsi üzrə mütəxəssislərin fikirlərinin dinlənilməsi, mövcud vəziyyətin təhlil edilməsi və onların əsasında "Ali təhsil haqqında" Qanun layihəsinin hazırlanması olduğunu qeyd edib. "Bununla bağlı biz beynəlxalq konvensiyaları, ölkəmizin qoşulduğu bir sıra beynəlxalq sənədləri, qanunvericiliyimizi və əmək bazarını təhlil etmişik. Bu gün səslənən fikirlər əsasında qanun layihəsinin ilkin variantı hazırlanacaq. İşçi qrupunun növbəti iclasında qanun layihəsinin ilkin variantı müzakirə ediləcək. Qanun layihəsi hazırlanıb komitəyə təqdim edildikdən sonra onun geniş müzakirələri keçiriləcək. Komitədə müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunacaq".

"Ali təhsil haqqında" qanun vacib sənədlərdən biridir. Və çoxdandır ki, qəbulu gözlənilir. Videokonfrans barədə məlumatda müzakirələrə təhsil sahəsi üzrə ekspertlərin də qatıldığının bildirilməsi diqqətimizi çəkdi. Amma adları sadalananlar arasında müstəqil ekspertlərə rast gəlmədik. Belə bir vacib qanunun müzakirəsinə niyə ekspertlər də dəvət edilmir? Ən azından ictimaiyyət də qanunda nə var, nə yox, bilsin deyə.

**Təhsil məsələləri üzrə ekspert, fəlsəfə doktoru Kamran Əsədov "Şərq"ə açıqlamasında müzakirələrə dəvət edilmədiyini dedi:**

- Dünya təcrübəsində belədir ki, qanun layihələri hazırlanarkən mütləq şəkildə ictimai müzakirələr aparılır, ekspertlərin rəyləri öyrənilir. Amma bizdə fərqlidir. "Ali təhsil haqqında" qanun layihəsinin müzakirəsində məmurlar, millət vəkilləri iştirak edir. Onlar problemləri görmürlər. Təhsil sahəsindəki problemlərdən bizim, yəni bu sahə üzrə ekspertlər qədər xəbərdar deyillər. Biz çatışmazlıqları görürük və deyirik. Onu da deyirik ki, elə qanun qəbul edilməlidir, sonradan onu dəyişməyə ehtiyac olmasın. Mən zaman keçdikcə yaranacaq müxtəlif situasiyalarla bağlı mümkün dəyişiklikləri nəzərdə tutmuram. Söhbət baza prinsiplərindən gedir. "Siz "Ali təhsil haqqında" qanunda nələrin əks olunmasını görmək istərdiniz" sualına cavabında K.Əsədov qeyd etdi ki, bir neçə vacib məqam var:



"Problemləri biz bilirik, elə qanun qəbul edilməlidir ki, sonradan onu dəyişməyə ehtiyac olmasın"

- Ali təhsilin idarə olunması, ali təhsilin qiymətləndirilməsi və beynəlxalq qiymətləndirmə, ali təhsilin maliyyələşməsi, ixtisas problemi, işəgötürənin məsuliyyəti, ixtisas üzrə işləmək imkanları, təhsilin kreditləşməsi Həllini gözləyən o qədər məsələlər var ki! Baxın, hazırda ölkənin 51 ali təhsil müəssisəsində 182 min tələbə təhsil alır. Onların yalnız 42 faizi ixtisası üzrə işlə təmin edilə bilir. Yerdə qalanlar ixtisaslarına uyğun olmayan işlərdə çalışmaq məcburiyyətindədilər. Niyə belə olmalıdır?! Hansı ixtisaslara ehtiyac varsa, o ixtisaslar üzrə qəbul keçirilsin. Və ali məktəblərin özlərinə qəbul prosesini keçirmələri üçün imkan verilsin. Məsələn, mən "Ali təhsil haqqında" qanunu yazmış olsaydım, müəllimlərin öhdəlikləri, semestr imtahanlarının keçirilməsinə diqqət ayırardım. Görün neçə ildir, biz guya ki, təhsildə Bolonya sisteminə keçmişik, amma semestr imtahanlarının hələ də sovet təhsil ənənəsiylə keçirildiyi ali məktəblər var. Müzakirələr aparılıb, çox yaxşı. Amma heç olmasa, yekun müzakirələrə bizi də dəvət etsinlər, fikirlərimizi bildirək.

**Məlahət Rzayeva**



# Bizi kökümüzə qovuşduran sənətkar

## Avtandil İsrafilovun sənəti xalqımız üçün qürur mənbəyi, iftixar qaynağıdır

Azərbaycan xalqı dünyada tanınmış istedadlı sənət adamları ilə daima qürur duyub. Onlardan biri də 80 yaşını haqlamış "Şöhrət" ordenli, Xalq artisti, görkəmli qarmon ifaçısı Aftandil İsrafilovdur. O, 70 ildir ki, musiqi ilə yoğrulmuş dilli alətini Azərbaycan mədəniyyətində professional bacarığı, zəngin təcrübəsi ilə idarə edərək, fitri istedadı, fanatik çalışması ilə sənət kəhkəşanında böyük nailiyyətlərə gəlib çatmağa müvəffəq olub. Şair Cəmil Əkbərin şeirinin bir beytindəki mükəmməl anlamlı fikir, sanki Avtandil İsrafilov üçün nəzərdə tutulub:

**Dərs almamış alim olan anadan,**
**İşıq verən çıraqbanı tapmışam.**

Bu dərin mənalı beytdən yola çıxaraq deyə bilərəm ki, Avtandil Uca Tanrıdan ilahi bəxşiş almış sənətkardır, 70 ildir ağuşunda məsum bir yavru tək bəsləyib işvəsini - nazını gecə - gündüz çəkdiyi, əlində göz bəbəyi kimi hifz edib qoruduğu qara qiyafətli "sənət günəşi" adlı qarmonun ecazkar səsiylə dünyamızı çıraqban edib. Özünün dediyi kimi, rəsmi sənədlərdə "Dilaftan" olaraq qeyd edilən adının ilk hecasındakı kəlmə, sanki dilli alət adlı qarmonun Avtandil ismində dünyaya qədəm qoyduğu gündən simvolik məna ilə möhürlənərək təsdiqlənib. Buna görə də Avtandil insanlarla ünsiyyətdə olduğu zaman yaradılışdan, hər bir insan üçün bəxş olunan fiziki dili ilə əlaqə saxlayıb, fikrini sözlərlə, kəlmələrlə ifadə etməklə bildirir. Fəqət onun əsas dili insanların görüb duya bilmədiyi gizli olan, sadəcə özünə aid nihan barmağının dilləri ilə qarmonun ağlı-qaralı görünən mərmər görünüşlü dillərinə toxunduğu zaman həmsöhbət olmaqla məramını, müdrik fikirlərini, mənəvi dünyasının aynası olan ruh halını bir peşəkar kimi ən gözəl şəkildə yansıda bilir. Bu baxımdan da dil Avtandilin həyatında iki məna kəsb edir. Həm Avtandilin adında, həm də qarmonun dillərində.

Dilinə gətirib deyə bilmədiyi düşüncələrini Avtandil qarmonun şirmayi dillərində daha möhtəşəm ifadə edə bilmə qüdrətinə sahibdir. Onun fikir və ifadə dili sözlərində əks olunsa da, ürək dili qarmonun düyməli dillərində daha anlamlı səslənir. Bu dünyada iki dillə yaşasa da, məna dolu hikmətlə yoğrulmuş ürək sözlərini yalnız bir dillə, musiqi dili ilə, rəqslərlə, min bir naxışlı melodiyalarıyla dünyaya uğurla çatdıra bilir.

Avtandil qarmon ifaçılığı sənətində bir şairdir. Məntiqi fikirləri, müdrik kəlmələri poetik misralarla musiqi dünyasında axarı - baxarı ilə qəlbimizə ruhumuza, mənəviyyat dünyamıza pünhanca süzülərək dolamaqla özünü göstərir.

Avtandil bir rəssamdır, bütün insanlıq aləminin ruh halını, fikir və düşüncələrini haqq tərəfindən bəxş olunan ilham adlı qeyri-adi fırçasıyla melodiyalar şəklində qarmon isimli kətana ən uğurlu bir şəkildə əks etdirə bilir.

Avtandil bir heykəltəraşdır ki, onun yaratdığı yüzlərlə əsərləri, tarixi abidələrimiz kimi zaman-zaman xalqımızın məhəbbət adlı müqəddəs məbədgahında qorunub saxlanmaqla yaşadılacaq, gələcək nəsillərə əmanət saxlanılacaq.

Avtandil sənəti xalqımız üçün qürur mənbəyi, iftixar qaynağıdır. Avtandil müəllimin hər ifasında insan sevinir, nəşələnir, fəxarət hissələri yaşayır, mənəvi saflıq dünyasında paklaşır, ülvi gözəllik dünyasına bələnir. Onun hər çalğısı bir ixtiradır, möhtəşəm əsərləri yeni bir kəşf nümunəsidir. Avtandil sərrast ifadəli çalğısı ilə xalq musiqi nümunəmizə gözəllik ərməğanı bəxş edir.

Avtandil yaşadığı ünvan Azərbaycandır. Bu səbəblə də onun ifa etdiyi yüzlərlə əsərləri azərbaycançılığın timsalı kimi uzun illərdir ki, musiqi dünyamızda namusla, qeyrətlə, qüdrətlə səslənməkdədir. O, özünəməxsus çalğısı ilə soydaşlarımıza vətəndaşlıq hissləri aşılamaqla, həm də qəhrəman bir türkçülük mədəniyyətini təlqin edir. Çalğısı ilə əslimizi, kökümüzü, şəcərəmizi tanıtmaqla, şərəfli tarixi keçmişimizi bir daha bizlərə qovuşdurur. Uzun illərdir xeyirxahlıq, insanpərvərlik, vətənpərvərlik, beynəlmiləlçilik Avtandilin əsrarəngiz melodiyalarından duyulmaqdadır.

Avtandil İsrafilov Azərbaycan qarmon ifaçılığı sənətində yeni bir era, yeni bir səpki, yeni bir çığırdır. Bu dəst-xəttin yaradıcısının ifaçılıq yolu ilə gedən sənətkarların, çalğı yöntəmindən, ifaçılıq tərzindən böyük həvəs və yaradıcılıqla istifadə edən gənc nəsil musiqiçilərin sayının həddindən çox olduğunu müşahidə edirik. Çünki Avtandil Azərbaycan qarmon ifaçılığı aləminə və musiqi mədəniyyətimizə çağdaş çalğı manerasını bəxş edib. Bununla da öz yolu ilə də minlərlə insanın ruh dünyasını fəth edə bilib.

Avtandil İsrafilov musiqi xəzinəmizin qoruyucusudur. Bu əmanət xəzinəsini dəyərli melodik töhfələri ilə daima zənginləşdirən etibarlı, doğru, dürüst bir şəxsiyyətdir. Xoşbəxt o millətdir ki onun, Nizamisi, Füzulisi, Şah İsmayılı, Üzeyir Hacıbəyovu var. Həm də cəsarətlə deyərdim ki, Avtandil İsrafilov kimi Dədə Qorqud timsallı müdrik sənətkarı da vardır. Çünki Avtandil İsrafilov Azərbaycanın musiqi dünyasının, o cümlədən qarmon ifaçılığının simvolu və simfoniyasıdır. "Qarmon sənətkarı" təbiri Avtandil İsrafilov üçün biçilib. Sənət dünyamızda "qarmon ifaçısı" dediyimizdə Avtandil İsrafilov anılır. Onun çalğısı ürəkdən gəldiyi üçün ürəkləri asanca fəth edə bilir. Onun böyük sənəti qarşısında ürəklərimiz, qəlbimiz daima riqqətə gəlir, ruhumuz minbir naxışlı melodiyaların ecazkar dünyası ilə qeyri-ixtiyari təslim, əsiryesir olur. Böyük sənətin mənası, əzəməti də bu qüdrətlə ölçülür.

Qürurlanıb öyünürsən ki, ilahidən gələn yaradıcı qarmon ifaçımız günümüzdə də bizimlə bərabər yaşamaqda, fəaliyyətini bu gün də şövqlə və şəstlə sürdürməkdədir. Kövrək hissilərimizin, lirik duyğularımızın sarı teldə səslənən tərcümanıdır Avtandilin ifası. Avtandil qarmonla görüşəndə röyamızdakı xəyallar çin olur, arzu və istəklər kama çatır. Məhz niyyətlərin kama çatmasıdır Avtandil sənəti. Min bir ülvi hissilərimizin tüğyanı sanki Avtandil barmaqlarında cövlan edir, nakam aşiqlərin könül aynasında gizlicə zühur edir. Bu baxımdan da Avtandilin qarmonunu əlindən almaq, devin canını almaq deməkdir. Qarmon Avtandil üçün yerdi, göydü, asimandı, səmadı, qalaktikadı, atmosferdi, oddu, havadı, sudu, torpaqdı, ərşdi, gürşdü, bu dünyadı, o dünyadı və sonda əsrarəngiz bir cahandı, bir aləmdi. Qərinədir, əsrdir, ildir, aydır, həftədir, gündür, saatdır, dəqiqədir, saniyədir, zamandır, dövrandır, hətta qiymətli anımızdır. Onun çalğısı zamana - məkana sığmaz, nə cür başlar, necə başlar, nə vaxt bitər, bilinməz. Nə yerə, nə göyə sığar bu ifa. Heç bir məcrada qərar ala bilməz bu əsrarəngiz - bənzərsiz ifa. Sirlə dolu bir aləmdir Avtandilin ifaçılıq sənəti.

Bir günəşdir, işıqladır hər yanı. Sonu görünməz bir dünyadır bu ali səviyyəli ifa. Açılmaz, çözülməz bir hikmətdir bu çalğı. Mənəvi bir həyatdır, ilahi bir dünyadır Avtandil ifası. Yaşamaq sevincidir, qurmaq həvəsi, yaratmaq istəyi, təmənnasız xidmət göstərmək niyyətidir bu çalğı. Mənəvi qidasıdır ruhun, cismin canıdır. Dərd, məlal varsa, sevinc-nəşə də mövcuddur bu ilahi səslərdə.

Qarmon Avtandil üçün tale və ömür yoldaşıdır. Dostdur, qardaşdır, tərəf - müqabildir, həmsöhbətdir. Bu dediyini o anlayır, qarmon söylədiyini də Avtandil. Nə Avtandil bu mənəvi qidadan doyur, nə də qarmon usanır bu təmasdan. Qarmonda səslənən Avtandil qəlbinin riqqəti - təlatümüdür ki, möcüzəli səslər dünyasında bərq vurur. Nur saçaraq hərarət verir, bəzən soyuq nisgilli qəlb dünyamıza. Şəhidlərimizin müqəddəs qanları ilə sulanmış Qarabağ naləli, Göyçə fəryadlı, Zəngəzur həsrətli, o taylı, bu taylı gövr eyləyən yaramızın nisgilli səsi - sədasıdır, qarmonun dili ilə dünyaya danışır. Bu səbəblə də həm sevinc, həm dərd ortağıdır Avtandilin qarmonu. Dərdimiz, sevincimiz Avtandil ifasında qarmonun vasitəsilə paylaşılır. Böyük qarmon ustadının sənətinə, yaradıcılığına olan sonsuz hörmət və sevgimin nişanəsi idi ki, 2007-ci ildə "Nurlan" nəşriyyatı tərəfindən yayımlanan 1-ci və 2-ci cild "Azərbaycan rəqs havaları" məcmuəmdə Avtandil İsrafilovun müəllifi olduğu 15 rəqs nümunəsi yer alıb. Türkiyənin məşhur bağlama ustadı, Ankara Gözəl Sənətlər Universitetinin rektoru, professor Erol Parlak Avtandil İsrafilov sənətinə hörmət bəsləyən sənətkarlardandır. Təsadüfi deyil ki, bir neçə il öncə "Basqalı rəqsi"ni dəqiq çala bilməsi üçün nota yazdığım örnəyi göndərməyi məndən xahiş etmişdi. Sonralar TRT proqramlarının birində izlədiyim zaman ifada bir yanlışlığın, qüsurun olmaması məni çox sevindirdi.

Bütün bu əlamətdar hadisələr məni Avtandil İsrafilov yaradıcılığına təkrarən müraciət etməyə sövq etdi. Bu məramla onun 25 rəqsdən ibarət bəstəsini ("Yallı rəqsi", "Aynurə rəqsi", "Kəmalə rəqsi", "Nazilə", "Sevgilim", "Simrani rəqsi", "Yeni Rəqs", "Basqalı rəqsi", "Cəmilə rəqsi", "Dağlaroğlu rəqsi", "Zemfira rəqsi", "Qarabağ rəqsi", "Cəlalirəqsi", "Bakı - Tiflis - Ceyhan", "Nüşabə rəqsi", "Jalə rəqsi", "Bakı gecəsi", "Vüsalə rəqsi", "Bahar rəqsi", "Laləzar rəqsi", "Futbolçu rəqsi", "Ayselim rəqsi", "Nailə rəqsi", "Osmanı rəqsi" ) nota köçürdüm və Türkiyənin məşhur "İKSAD Yayın Evi" tərəfindən nəşr etdirə bildim. Qurumun prezidenti Mustafa Lətif Əməkin, Sefa Salih Bildiricinin və İbrahim Kayanın bilavasitə təlimatı ilə nəşr etdirməyə nail olduğum bu toplu 80 yaşı ərəfəsində Avtandil İsrafilov sənətinə olan sevgi və heyranlığımın növbəti bir ərməğanı idi.

Vətən uğrunda müharibənin qələbə ilə sona çatması və böyük qələbəmiz sayəsində tarixi Qarabağ torpaqlarımıza sahib olmağımız əvəzi olmayan uğurdur. Azərbaycan Ordusunun, Ali Baş Komandan və xalqımızın qəhrəmanlığı ilə, həm də müqəddəs şəhidlərimizin qanı bahasına işğaldan azad olunmuş Qarabağ adlı müqəddəs məkanmızın mübarək azan səsinə, qara zurnamızın, tar-kamanımızın, sazəndə və xanəndələrimizin, aşıq sazında tüğyan edən neçə-neçə qədim ahəngləri ilə yanaşı zil notlarda ötən qartal görünüşlü qara qarmonda səslənən, Avtandil İsrafilovun bir vaxtlar bəstələdiyi "Qarabağ rəqsi"nin xarıbülbülün ana vətəni olan "Cıdır düzü"ndə əzəmətlə, məğrur, şəstlə səsləndirəcəyinə də çox böyük ehtiyacımız var. Böyük və bənzərsiz sənətkarımız Avtandil İsrafilovun da 2021-ci ildə neçə-neçə musiqi töhfələrinin, mübarək barmaqlarının tuşlara toxunduğu zaman yüksələn "Xoşbəxtlik simfoniyası" adlı əsərinin mədəniyyət paytaxtımız Şuşada səslənməsini intizarla, həyəcanla gözləyirik.

Tələbə və Gənclərin XII Ümumdünya Festivalı, avqust 1985. Moskva









(soldan sağa) Avtandil İsrafilov, Aybəniz Haşımova, Firuzə İbadova,

**İlqar İmamverdiyev,**
**Türkiyənin Qaziantep Universitetinin professoru, sənətşünaslıq doktoru.**

# “Koronavirusa qarşı vaksin mövcud deyil”

## Həkim-psixiatr şok açıqlamalar verib



"Koronavirusa qarşı vaksinin hazırlanması prinsipcə mümkün deyil. Çünki yeni insan vaksininin hazırlanması uzunmüddətli və bahalı prosesdir". Bu sözləri "Şərq"ə açıqlamasında həkim-psixiatr Abdulla Şıxlinski deyib. Həkim bildirib ki, vaksin bioloji mənşəli tibbi preparatdır: "İnsan vaksininin hazırlanması üçün 25-30 il, veterenariya vaksinlərinin hazırlanması üçün isə 10-15 il vaxt lazımdır. İnsan üçün vaksinin hazırlanması aşağıdakı mərhələləri əhatə edir: birinci, baza tədqiqatları. Bu mərhələ özü də bölünür: A) törədicinin əsaslı laborator müayinəsi. B) Preparatın birincili konstruksiyasının seçimi. İkinci, klinikaya qədərki tədqiqatlar. Bu mərhələ bölünür:

A) Hüceyrə qruplarında sınaqlar (in vitro) B) Laboratoriya heyvanlarında sınaqlar (in vivo) C) Preparatın təhlükəsizliyinin və effektivliyinin qiymətləndirilməsi D) Ciddi yan təsirlərin öyrənilməsi Q) Maksimal qəbul dozasının təyini. Üçüncü, kliniki sınaqlar. 1. Faza - İmmun cavabın öyrənilməsi. 2.Faza-preparatın vurulma tezliyi və başqa zərərli yanaşı təsirlərin öyrənilməsi.

Dördüncü, dövlət nəzarəti və vaksinin vurulacaq ölkədə qeydiyyata alınması. Beşinci, vaksin istehsalının müntəzəm dövlət yoxlamaları mərhələsi, vaksinin vurulması prosesinə cari dövlət nəzarəti".

**A.Şıxlinski vurğulayıb ki, dünyada COVİD-19 elan ediləndə pandemiyanın planetdə heç bir elmi meyarları yox idi: ”Pandemiya transnasional kompaniyaların sifarişi ilə, Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) 3 milyard dollar pul verildikdən sonra , ÜST-nin assambleyası ilə məsləhət edilmədən elan olunub.** Halbuki, Assambleyanın icazəsi olmadan ÜST-nin öz nizamnaməsinə görə, pandemiya şəxsən ÜST-nin sədrinin iradəsi ilə elan edilə bilməz. Elan edilmiş yalançı pandemiyanın başlanmasından heç bir il də keçməyib, insan vaksini hazırlığına isə ən azı 25 il vaxt gedir. Yuxarıda qeyd edilən hazırlıq proseslərinə real halda 30 il vaxt lazım olur. Vaksin hazırlığında müasir dövrdə 3 növ texnologiyadan istifadə edilir: 1.Biotexnologiyalar.2.Nanotexnologiyalar.3.Kompüter texnologiyaları.

Bu texnologiyaların birlikdə tətbiqi nəticəsində vaksin hazırlanmasına ən azı 25 il vaxt sərf olunur. Bəs, hazırda guya bir il ərzində (heç bir il də keçməyib) hazırlanan, vurulması insanlar üçün vacib hesab edilən "vaksin" adını daşıyan maddə həqiqətdə nədir? Vəzifəli çinovniklər bütün dünyada televiziya kameraları qarşısında qollarını açaraq ”mən vaksin vurururam” deyə qışqırırlar.

Onların vurdurduğu doğrudanmı bir ilə hazırlanmış ”vaksin” adını daşıyan o şübhəli maddədir? Bəlkə onlar ”gözdən pərdə asmaq” üçün özlərinə sadəcə fizioloji məhlul, distillə olunmuş su və ya sadəcə vitamin vururlar? Axı biz o şprislərdə nə olduğunu bilmirik!.

Artıq bütün beynəlxalq ictimaiyyətə məlumdur ki, hər gün dünyanın bütün

> **“Bu texnologiyaların birlikdə tətbiqi nəticəsində vaksin hazırlanmasına ən azı 25 il vaxt sərf olunur”**

qitələrində ”vaksin” adı ilə insanlara yeridilən şübhəli maddədən yüzlərlə insanlar tələf olur.

Sağ qalanlarda isə mütləq hər hansı qəfləti ağır xəstəlik inkişaf edir, iflic, ruhi-əsəb pozğunluqları, anafilaktik şok, qəfləti ürək dayanması, səbəbsiz olaraq bədən hərarətinin qalxması və enməməsi, beyin və ağciyər ödəmi, hamilə qadınlarda uşaqsalma. Bu siyahını aramsız olaraq uzatmaq olar. Koronavirus əleyhinə vaksinin mövcud olmamasının bir səbəbi də odur ki, koronavirus xəstəlik törətmək qabiliyyətinə malik deyil.

Akademik Filatov yazır: ”Koronavirus o qədər zəifdir ki, hətta laboratoriya şəraitində davamlı yaşaya bilmir, zəif, virulentliyi 0-a bərabər olan virusa qarşı vaksin hazırlamaq mümkün deyil. Koronavirus ən pis halda 3 günlük zökəm törədə bilir, ondan artığa qadir deyil” .

Filatov məhz vaksin hazırlanması ilə məşğul olan məşhur sovet və rus alimidir. Zəif törədicilərə qarşı vaksin hazırlamaq mümkün deyil. 2020-ci ilin martında Akademik Onişenko koronavirusu "dobraçok", yəni xeyirxah virus adlandırmışdı. Bunları oxuyan insanlarda belə bir sual yarana bilər: ”Bəs bu insanları öldürən xəstəlik nədir?”

Cavab verirəm: koronavirusu təsdiq edən müayinə metodu mövcud deyil, test müayinəsi koronavirusu təstiq etmir, bu, testləri satmaq üçün ÜST-nin bir oyunudur. Artıq dünya alimləri koronavirusu obyektiv göstərən müayinənin mövcud olmadığını təsdiq ediblər, gözə görünməyən, laboratoriyada təyin oluna bilməyən virusa qarşı necə vaksin hazırlamaq olar? Bu, mümkün deyil! Hazırkı xəstəlik isə bütün dünyada qlobal oliqarxat-dünyəvi dövlət tərəfindən tətbiq olunan kimyəvi silahdır.

Bu kimyəvi silahın tətbiqindən yaranan, hazırda insanlarda təsadüf olunan, dadbilmə, iybilmə hissinin itməsi, ağır pnevmoniya ilə keçən, bəzən ölümlə nəticələnən ağır xəstəliyin koronavirus adlı günahsız törədici ilə heç bir əlaqəsi yoxdur. İndi insanlarda təsadüf edilən xəstəliyin təsviri hələ SSSR Müdafiə Nazirliyinin baş tibb idarəsinin xüsusi metodik vəsaitlərində təsvir edilib.

Kimyəvi silahın orqanizmdə törətdiyi dəhşətli fəsadlar uzun illər keçməsinə baxmayaraq, dəyişməz qalır. Sanki indiki faciəvi günlər təsvir edilib. Dünyəvi tibb dövləti özünə lazım olan halda kimyəvi silah tətbiq edib bu xəstəliyi çoxaldacaq, lazım olmayanda isə kimyəvi silahın tətbiqini dayandırıb xəstəliyi azaldacaq”.

**Həkim söyləyib ki, vaksinin vurulması planetdəki insanların sayını 1 milyarda qədər azaltmaq üçündür:** ”Dünyəvi dövlətin üzvləri bunu açıq etiraf edirlər, onların planetdəki əhalinin sayını azaltmaq üzrə planları ilə tamamilə açıq, heç bir sirr olmadan müxtəlif resurslarda və məqalələrdə tanış olmaq olar. Onların dediklərindən bir neçə sitat: ”Biz vaksinasiyanı keyfiyyətli apara bilsək, dünya əhalisinin sayını 10 -15 faiz azalda biləcəyik. Planetdə karbon qazı durmadan artır, bununla mübarizə etmək üçün yeganə çıxış yolu insanları bir neçə dəfə ard-arda vaksinləşdirməklə onların sayını 1 milyarda qədər azaltmaqdır”.

”Mən öz uşaqlarıma vaksin vurdurmayacağam”. Dünyəvi dövlətin tanınmış bir üzvü müsahibəsində belə deyib: ”Vaksin qara camaata lazımdır, mən və mənim uşaqlarım isə elitadır”. Dünya əhalisinin sayının azaldılması prosesi keçmiş sovetlər birliyi ölkələrində daha keyfiyyətli aparılmalıdır. Bu tör-töküntüdən lap tez azad olmaq üçün vaksinasiya 2-3 dəfə son nəticə alınana qədər aparılmalıdır. Vaksin flakonlarında lazımsız millətləri, fərdləri sterilizasiya edən maddələr olacaq.

Bu universal maddələr yaşı 30-dan yuxarı insanları tədricən öldürəcək, uşaqlar və cavanlar həmin maddələrin təsirindən sonsuz olacaqlar-reproduktiv orqanlar atrofiya olunacaq, nəsil artımı dayanacaq”. Dünya əhalisi azaldıqda dünyəvi dövlətə xidmət edən insanlar-onların ailələrini qoruyan təhlükəsizlik işçiləri, aşpazlar, bərbərlər və başqa qulluqçular vaksinasiya olunmayacaq, bu qulluqçu personal ”elita qulluqçuları” adlanacaq” .

Rusiya əhalisinin 75 faizi, Avropa əhalisinin 89 faizi vaksinasiyanın əleyhinə olduqlarını artıq bildiriblər. Dünyanın bütün ölkələrində vurulan vaksinlər ancaq bir nöqtədən gəlir, bir məntəqədə hazırlanır-ABŞ-ın farmasevtik kompaniyaları. Bu kompaniyalar istisnasız olaraq dünyəvi dövlətin nəzarəti altında fəaliyyət göstərir, dünyanın başqa heç bir ölkəsində "vaksin" adlı maddə hazırlanmır. Elə buna görədir ki, vurulan maddələrin bütün əlavə təsirləri bütün ölkələrdə eynidir”.

**A.Şıxlinskinin fikrincə, ”vaksinasiya” mütləq mənada könüllü xarakter daşımalıdır:** ”Arzu edən bütün insanların ”vaksinlərdən” bəhrələnmək imkanları olmalıdır. Lakin artıq dünya təcrübəsi göstərir ki, ”könüllü” adı ilə başlayan vaksinasiyalar, əslində məcburi olur: vaksinləşməyən insanlar işdən qovulur, bank hesabları bağlanır və s. Nəticədə insana şərt qoyulur: ”Ya vaksinləş yaşa, ya da yenə vaksinləş, amma yaşama”.

Nəzərə çatdırmaq lazımdır ki, əhali arasında vaksinləşmək təbliğatı aparan həkimlər yalnız müəyyən beynəlxalq, qlobal dairələrə xidmət edən, pula satılmış, vicdanını itirmiş, Hippokrat andını tapdalayıb keçmiş insanlardır”.

**Yeganə Bayramova**

## Yoluxmanın yenidən artma ehtimalı var

### “Sayın azalmasına insanlar kömək edə bilər”



**”Bəzi vətəndaşlar qaydalara riayət etmirlər, məsuliyyətsiz davranırlar.** Anlamırlar ki, nəinki bizim ölkədə, hətta dünyada da koronavirus tam yoxa çıxmayıb. Hətta bəzi Avropa ölkələri yenidən sərt karantin rejimini tətbiq edirlər. Sadəcə insanlarımız əksinə fikirləşirlər. Düşünürlər ki, sərt karantin sona çatdısa, qaydalara əməl etmək lazım deyil”.

**Bu sözləri ”Şərq”ə açıqlamasında infeksionist-parazitoloq Vüqar Cavadzadə söyləyib. O bildirib ki, sonuncu yoluxan şəxsə qədər profilaktik tədbirlər həyata keçirilməlidir:** ”Yaxın tarixə qayıtsaq görərik ki, yay aylarında yoluxanların sayı kəskin azalmışdı. İnsanlar bununla arxayınlaşdı, korona yaddan çıxdı. Payız fəslində koronavirusa yoluxma sayı 5000-ə yaxınlaşırdı. İndi də qaydalara riayət edilməsə, yenidən artacaq, ehtimal var. Sayın azalmasına insanlar kömək edə bilər. Ona görə karantin qaydalarına riayət olunmalıdır. Həm də indi vaksinasiya dövrü başlayıb. Pandemiyanın geniş yayılması vaksinasiyadan kənarda qalan şəxslərin çox olması ilə nəticələnəcəkdir. Bu da müsbət göstərici deyil. Hazırkı durumda insanlar maska taxmırsa, məsafə saxlamırsa, mənfi haldır. Gələcəkdə yoluxanların sayının artmasına səbəbdir. Bununla da bizi sərt karantin rejimi gözləyəcəkdir”.

**Samirə Ərəbova**

## Karantin rejimi tətbiq edilməzsə...

### Fransa martın ortalarında çətin vəziyyətə düşə bilər




**Belə davam etsək, martın ortalarında çətin vəziyyətdə qalacağıq.**

Azərtac bildirir ki, bu fikri Fransa Elmi Şurasının prezidenti Jan-Fransua Delfresi söyləyərək, ölkədə koronavirusla bağlı çətin vəziyyət gözlənilməsi ilə bağlı fransızları xəbərdar edib.

Bildirib ki, indiki durum ürəkaçan deyil. Qonşu ölkələrdəki, xüsusilə də İrlandiya və Böyük Britaniyadakı vəziyyətə diqqət çəkərək, onlardan nümunə götürməyə dəvət edib.

*Qeyd edib ki, yeni təcridolma rejimi ehtimal olunur. Bu qərarın siyasi qərar olduğunu nəzərə alaraq, yeni təcridolma rejimi haqqında müfəssəl məlumat verməyib. J.-F. Delfresi mövcud vəziyyətin uzun zaman davam edə bilməyəcəyini bildirib. Virusun yeni ştammlarının vəziyyəti gərginləşdirəcəyini vurğulayıb. Yeni ştammların ikinci pandemiyanın ekvivalenti olduğunu deyib. Virusun yeni ingilis ştammının yayılmasının qarşısını almaq mümkün deyil.*

*Koronavirusun yeni ştammlarına qarşı mübarizədə təcridolma rejiminin vacibliyini dilə gətirən Elmi Şuranın prezidenti peyvənd kampaniyasına da toxunaraq, səhiyyə nazirinin optimist fikri ilə razılaşmadığını və yaya qədər əhalinin yalnız 40 faizinin peyvənd oluna biləcəyini deyib.*

# Gözmuncuğu bəd nəzərdən qorumur

## Bu əşyadan istifadə etmək Allaha şərik qoşmaqdır



*İnsan Allaha güvənməli və qorunmağı da Ondan istəməlidir. Adi daş, ağac parçaları, bəzək əşyaları bəd nəzərdən qoruya bilməz. Bədnəzərdən qorunmağın yolunu Allah-təala bəndəsinə göstərib. Bu da "Qurani-Kərim"dəki məlum surələr də dualardır.*

Məsələn, "Fələq", "Nas" surələri, "əl-Bəqərə" surəsinin 255-ci ayəti - Ayətül-kürsi. Diyanət İşləri Başqanlığının fətvasında bildirilir ki, gözmuncuğu timsalı elementlərdən bəzək məqsədilə istifadə etmək olar. Lakin bu əşyalardan bəd nəzərdən, müxtəlif xəstəliklərdən qorunmaq, güc əldə etmək, ticarətdə qazanclı olmaq məqsədilə istifadə düzgün deyil və haram əməllə eyni dərəcədədir. Gözmuncuğu inanc əşyası olmamalıdır. Onun hansısa qüvvəyə, gücə malik olduğuna inanmaq da Allahın gücünə, qüdrətinə qarşı gəlməkdir.

Təəssüf ki, bizdə də gözmuncuğu bəd nəzərdən qorunmaq vasitəsi hesab edilir. Və mağazalarda, ticarət köşklərində satışa çıxarılır. İşbazlar insanların həssaslığından, duyğularından, eləcə də bilgisizlik və xurafata meyilliliyindən yararlanaraq bu cür əşyaları, guya ki, bəd nəzərdən qorumaq funksiyasına malik olduqları adı altında satır və qazanc əldə edirlər.

**İlahiyyatçı Hacı Atif İsmayılov**

**"Şərq"ə açıqlamasında varlıqlara pərəstişlə etiqad arasında ilk baxışda çətin görünən sədd olduğunu bildirdi:**

- "Qurani-Kərim"də Allah-təala Rəsullaha buyurur ki, bəd nəzərli insanlar var, onlarla qarşılaşdıqda

> Hacı Atif İsmayılov: "Kimsə evində gözmuncuğu asırsa, yaxud körpəsinin üzərində gözmuncuğu gəzdirisə, bunu etiqad mənasında etməməlidir. Sadəcə, bir bəzək əşyası kimi istifadə etməlidir"

Allaha sığın. "Qurani-Kərim" vasitəsilə - "Fələq" və "Nas" surələrində Rəbbimiz bəd nəzərdən, batil əməllərdən Allaha sığınmağı və buna uyğun da müvafiq ayələri oxumağı tövsiyə edir. Yəni Allah-təala peyğəmbəri bəd nəzər, batil əməllər qarşısında "silahsız" buraxmır. Ona qorunmaq üçün "silahı" nişan verir - ayələri. İlk növbədə Allaha inanacaqsan, sonra da onun sənə tövsiyə etdiyi yolla gedəcəksən. Çünki həmin ayələrdə şeytanın şərrini, düyünlərə üfürənlərin bəlasını Allaha sığınmaqla dəf etmək olar. Amma bəndə hərəkət etməlidir, bu da Allahın biz bəndələrinə göndərdiyi ayələrdir - dualardır. Xüsusi olaraq bəd nəzər duaları var, dini kitablarda qeyd edilir. Onlar da "Qurani-Kərim"dən müxtəlif ayələr əsasında tərtib edilib. Peyğəmbərimiz (s) (pbuh) ... Pəsulullah əleyhissalamdan nəql olunan hədislərdə var ki, əqiq daşı, xüsusilə Yəmən əqiqi, firuzə daşı insanı bəd niyyətlərdən qoruyur. Müxtəlif mədən daşları var ki, hansısa xəstəliklərdə istifadə olunmaları tövsiyə edilir. Deyək ki, dənizdən çıxarılan daşlar, kəhrəba və sair. Allahın yaratdığı hər bir varlığın özünəməxsus keyfiyyəti və xüsusiyyəti var. Bizim cansız hesab etdiyimiz varlıqlar əslində canlı ola bilir və Uca Allahı təqdis edirlər. Biz hansısa daşa, sadəcə daş parçası kimi baxırıq. Onu cansız, dilsiz hesab edirik. Amma onun canlı və ya cansız olduğunu bilmək qürdətində deyilik. Yaratdıqlarının hansı xüsusiyyətə malik olduğunu onu Yaradan bilir.

**H.A.İsmayılov qeyd etdi ki, çətinlik və insanlarımızı çaşdıran etiqadla pərəstişi bir-birindən ayırmaqda çətinlik çəkmələridir:**

- Biz hər bir işdə birbaşa Allahdan kömək gözləsək, gərək xəstələr sağalmasın, uzanıb həyatdan köçəcəyi saatı gözləsin. Dünyada tibb elmi var, həkimlər xəstələri müayinə edir, müalicə təyin edir, dərman yazır. Və deyir ki, bu dərmanları içsən, xəstəliyin yüngülləşər. Hər bir varlığın yaranma səbəbi olduğu kimi, xəstəliklərin də səbəbi var və bunu həkim araşdırır. Səbəblər inkar edilmir. Xəstə əlbəttə, ilk növbədə Allahdan şəfa istəyir, xəstələrə, yaralılara hamımız ilk növbədə Allahdan şəfa diləyirik, amma bununla yanaşı onların müalicəsi aparılır, sağalmaları üçün hansı tibbi üsul münasibsə, o həyata keçirilir. Etiqad yalnız Allahadır. Daşlara, başqa varlıqlara etiqad edilməz. Onlardan müalicə məqsədilə, yaxud bəd nəzərlilərdən qorunmaq üçün istifadə edilə bilər. Əsas niyyətin düzgünlüyüdür. Etiqad, iman və inam Allahadır, həmçinin Allahın yaratdığı varlıqlara pərəstiş etmədən, müəyyən çətinlikləri onların vasitəsilə dəf etmək olar. Daşlar və digər əşyalara etiqad etmək şəri nöqteyi-nəzərdən düzgün deyil, amma onlardan sağlamlıq məsələlərində istifadə etmək olar. Eləcə də kimsə evində gözmuncuğu asırsa, yaxud körpəsinin üzərində gözmuncuğu gəzdirisə, bunu etiqad mənasında etməməlidir. Sadəcə, bir bəzək əşyası kimi istifadə etməlidir.

**Məlahət Rzayeva**

## Təbrik edirik!



Samirəni 44 yaşının tamam olması münasibətilə qızları Leyla, Nərgiz, ailə dostu Emin müəllim təbrik edir, ona cansağlığı, uzun ömür arzulayırlar.

## Türkiyədə yaşı 80-dən yuxarı olanların peyvəndlənməsinə başlanılır



**Türkiyənin Koronavirus üzrə Elmi Şurasının qərarı ilə bu gündən etibarən ölkədə vaksinasiyanın birinci mərhələsinin ikinci etapı - yaşı 80-dən yuxarı olanların peyvəndlənməsinə başlanılır.**

Bu məlumatı Türkiyənin səhiyyə naziri Fahrettin Koca bildirib.

Hazırda Türkiyəyə gətirilən Çinin "Sinovac" şirkəti tərəfindən hazırlanan "CoronaVAC" peyvəndinin ikinci partiyasının birinci hissəsi Türkiyənin Dərman və Tibbi Ləvazimatlar Qurumunun (TİTCK) laboratoriyasında ən az 14 gün müddətində analiz ediləcək.

İki ölkə arasında əldə edilən razılığa əsasən bir il ərzində Çindən Türkiyəyə 50 milyon doza vaksin gətiriləcək ki, bu da 25 milyon nəfərə tətbiq ediləcək.

## "Sefirin kızı"na çəkilmək üçün 3 milyon alıb



**"Sefirin kızı" serialında Nare obrazını canlandıran Neslihan Atagülün layihədə getməsindən sonra ekran işinə Tuba Büyüküstün qatılıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, sənətçinin serialdan alacağı qonorar açıqlanıb. Bildirilib ki, Tuba transfer üçün 3 milyon lirə (687 min manat) alıb.

Bundan başqa Büyüküstün hər bölüm üçün 200 min lirə *(45 min manat)* qonorar alacaq.

## Ötən il Azercell-in LTE şəbəkəsinin ölkə üzrə genişlənməsi 85 faizdən artıq olub

**"Azercell Telekom" 2020-ci il ərzində LTE şəbəkəsinin təkmilləşdirilməsi layihəsini uğurla həyata keçirib. Qeyd olunan dövrdə Azercell-in LTE şəbəkəsinin əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi ölkənin hər yerində abunəçilərin daha keyfiyyətli xidmətlə təmin olunmasına şərait yaradıb.**

Görülən işlər nəticəsində ötən il ərzində Azercell-in LTE şəbəkəsinin əhatə dairəsi 74,2%-dən 85,1%-ə yüksəlib, şəbəkənin ərazi baxımdan coğrafi əhatəsi isə 61,4%-dən 72,4 %-ə qədər genişləndirilib. LTE şəbəkəsinin təkmilləşdirilməsi layihəsinin başlandığı 2 il ərzində isə (01.01.2019-cu il tarixindən 2020-ci ilin sonunadək) Azercell-in LTE şəbəkəsinin əhali əhatə dairəsi 35.9%-dən 85.1%-ə, coğrafi dairəsi 22,5%-dən 72,4%-dək artıb.

LTE şəbəkəsinin genişləndirilməsi layihəsi çərçivəsində 2020-ci ildə bu texnologiya üzərindən çalışan 784 yeni radio baza stansiyası quraşdırılıb. Bu stansiyaların müəyyən hissəsi 44 günlük Vətən Müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərdə işə salınıb. Ümumilikdə LTE şəbəkəsinə aid radio baza stansiyalarının sayı 2679-a çatdırılıb. Xüsusilə regionlarda görülən işlər sayəsində ölkə üzrə LTE şəbəkəsi daha da genişləndirilib. Qeyd etmək kifayətdir ki, keçən ilin təkcə sentyabr-dekabr ayları ərzində 118 yeni LTE stansiya istifadəyə verilib.

Şəbəkənin təkmilləşdirilməsi sahəsində aktiv fəaliyyətinin nəticəsi olaraq ölkə ərazisində Azercell-in təqdim etdiyi xidmətlərdə əhəmiyyətli irəliləyişlər olub. Görülən işlər Azercell şəbəkəsi üzrə LTE texnologiyası ilə ötürülən data trafikin həcminə də təsir edib. Son bir il ərzində bu göstərici 2.25 dəfə artıb. Hazırda şəbəkədə daşınan ümumi trafikin təxminən 69%-i bu texnologiya üzərindən daşınmaqdadır. Ümumilikdə 2020-ci il ərzində LTE şəbəkəsi üzrə səs trafikində 14%, internet trafikində isə 60% artım əldə olunub.

Bakı və Abşeronda LTE şəbəkəsinin keyfiyyətinin yaxşılaşdırılması tədbirləri Bakı metropolitenində də aparılır. Layihə çərçivəsində artıq 13 metro stansiyasında və tunellərdə işlər yekunlaşıb. Metro stansiyalarda aktivləşdirilən LTE-Daşıyıcı Birləşdirmə sistemi bu şəbəkədən istifadə edən abunəçilərin daha yüksək sürətli mobil internet əldə etməsinə imkan verir.

Qeyd edək ki, bölgələrdə LTE texnologiyası üzrə datanın ötürülmə sürəti, informasiyanı yükləmə müddəti və video materialların daha yüksək keyfiyyətlə ötürülməsi parametrlərinə görə Azercell ölkənin digər mobil operatorlarından öndədir. Bunu Avropanın "Systemics" şirkətinin ötən il Azərbaycanda keçirdiyi müstəqil bençmarkinq testinin nəticələri də təsdiqləyib. Dünya miqyaslı telekommunikasiya şirkəti olan Ericsson-un apardığı bençmarkinq araşdırmaları isə LTE şəbəkəsinin sürətinə görə Azercell-in "Öz sinfində" ("Best in class") ən yaxşı operatorlardan biri olduğunu göstərib. Şəbəkənin real zaman rejimində monitorinqinə imkan verən Argela sisteminin tətbiqi də Azercell-in LTE şəbəkəsinin keyfiyyətinin yüksək səviyyədə olmasına imkan yaradır.

Hazırda Azercell şirkəti LTE şəbəkəsinin paytaxt və regionlar boyu daha da keyfiyyətli olması, internet trafikin yüksək keyfiyyətinin təmin edilməsi və artırılması istiqamətində texniki tədbirləri davam etdirir. Lider mobil operator LTE üzərində çalışan baza stansiyalarının sayını da sürətlə artırır.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 186



## Bakıda 2 yaşlı uşaq lobya dənəsi udub boğuldu

### Təcili olaraq həkimə çatdırılan uşağı cərrah ağır vəziyyətdə qəbul edib



**Bakıda 2 yaşlı uşaq evdə lobya dənələri ilə oynayarkən, onlardan birini udur.**

Lobya nəfəs yoluna düşür və uşaq boğulmağa başlayır.

Ana ilkin tədbir görüb, lobyanı çıxarmağa çalışsa da bu mümkün olmur. "Medicina.az"xəbər verir ki, təcili olaraq həkimə çatdırılan uşağı cərrah Fuad Hüseynov ağır vəziyyətdə qəbul edir. "Uşaqda saturasiya 30% idi, demək olar ki, sağ qalmaq şansı azalırdı. Lobya ağız suyunun təsirindən daha da şişib, getdikcə nəfəs yolunu tam bağlayırdı.

Təcili əməliyyatxanaya alıb, işıqlı endoskopik alətlə çətinliklə lobyanı parçalayıb çıxardıq. Uşağın tənəffüsü bərpa olundu. Valideynləri bu kimi hadisələrlə qorxutmaq istəmirik, amma adi bir lobya ilə belə körpə uşaq oynayarkən diqqətli olun. Nəfəs yoluna yad nəsə düşəndə isə əgər ilk cəhddən çıxara bilmədinizsə, vaxt itirməyin, dərhal xəstəxanaya çatdırın. Belə halda dəqiqələr də önəm daşıyır".

## Dünyada bir ilk yaşandı

### Kişiyə yeni qol köçürüldü



**Fransada dünya tibbində ilk dəfə olaraq xəstəyə hər iki qolun transplantasiyası əməliyyatı keçirilib.**

"Medicina.az"xəbər verir ki, 48 yaşlı islandiyalı kişi elektrik zərbəsindən hər iki qolunu itirmişdi. Cərrahlar onun üzərində bir neçə ağır əməliyyatlar keçirmişdilər.

Lakin ən çətini hər iki qolun yenidən köçürülməsi idi. Əməliyyat 15 saat davam edib. Xəstəyə köçürülən qollar meyit orqanıdır.

Qolların əməliyyatdan sonra hərəkət səviyyəsi yaxın vaxtda məlum olacaq. Hələ ki, pasiyentin vəziyyəti stabildir.

## Ana karantinə görə 10 yaşlı xəstə oğlunu boğub öldürdü



**Pandemiya səbəbindən tətbiq olunan karantin rejimində ağır stres keçirən qadın doğma övladını boğaraq öldürüb.**

Milli.Az Daily-mail-ə istinadla xəbər verir ki, Londonda yaşayan 40 yaşlı Olqa Freeman adlı qadın 10 yaşlı autizm xəstəliyindən əziyyət çəkən oğlunu boğaraq öldürdüyünü etiraf edib.

Qadın 10 yaşlı oğlu Dylanın ağzına süngər salaraq onu öldürdüyünü söyləyib. O, bildirib ki, koronavirusa görə tətbiq olunan karantin rejimi səbəbindən sağlamlıq mərkəzləri və məktəblər bağlı olub və həftələrlə oğlu evdə baxımsız qalıb.

*Qeyd edək ki, Olqa Freeman britaniyanın məşhur fotoqrafının keçmiş xanımı olub.*



# Tələb çoxdur

### Mustafa təsbehləri daha çox ərəb şeyxlərinə göndərir



**Türkiyənin Bursa şəhərinin İznik bölgəsində bərbərlik işindən çıxan bir şəxs xüsusi məhsullarını Səudiyyə Ərəbistanı Kralına və Ərəb Şeyxlərinə göndərir.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu məhsulların qiyməti 25 min lirə ilə 70 min lirə arasında dəyişir. 8 il əvvəl bərbərlik peşəsindən ayrılan və atelyesində xüsusi namaz muncuqları hazırlayan Mustafa Eyrikaya öz əlləri ilə hazırladıqları təsbehləri ilk olaraq dünyanın dörd bir yanından gələn kolleksiyaçılara satıb. Daha sonra təsbehlər üzərində xüsusi dizaynlar edən Mustafa Eyrikaya Səudiyyə Ərəbistanı Kralı və Ərəb Şeyxləri üçün xüsusi təsbehlər düzəldib. Təsbeh ustası Mustafa Eyrikaya bildirib ki, 8 ildir bu sənətlə məşğuldur: "Bunları kuka ağacından düzəldirəm. Ümumiyyətlə, tələb Ərəb krallığından və ərəb şeyxlərindən gəlir. Bunların istehsalında tamamilə əl işindən və yaqut, zümrüd və safir daşlardan istifadə olunur. Çox çətin, tələbkar bir işdir. Bir təsbehin düzəldilməsi 15 gün ilə 1 ay arasında dəyişir".

**Aynurə**



## Gözmuncuğu bəd nəzərdən qorumur

### Bu əşyadan istifadə etmək Allaha şərik qoşmaqdır



**Gözmuncuğu ən çox satılan aksessuarlar sırasındadır. Görünür, insanlarımızın bəd nəzərdən qorxmasının çəkisi, əhatə dairəsi hesaba alınaraq gözmuncuğu sənayesi də istehsalını genişləndirir.**

Ən müxtəlif ölçülərdə, müxtəlif dizaynda gözmuncuqları dükanlarda göz oxşayır. Gözmuncuqlarından az qala hər sahədə, hər məqsədlə istifadə edir insanlar. Körpələrin biləyinə, geyimlərinin yaxasına taxılır, beşiklərindən asılır, evin işinə də, çölünə də - giriş qapısına, mağazalarda, hətta kafe və restoranlarda da gözmuncuğu vurulur divara. Biz azərbaycanlılar hətta lap irəli gedib tikan, üzərlik... asırıq eyvandan, qapıdan. Din xadimləri isə hesab edir ki, bəd nəzərdən qorunmaq üçün gözmuncuğu və onunla eyni məqsədi bölüşən başqa əşyalardan istifadə etmək şirkdir - yəni, Allaha şərik qoşmaqdır. Qardaş Türkiyədə gözmuncuqlarının istifadəsinə dair Diyanət İşləri Başqanlığı fətva verib. Fətvada bildirilir ki, gözmuncuğundan bəd nəzərdən qorunmaq məqsədilə istifadə islam dininin ehkamlarına ziddir.

**(Davamı səh: 15-də)**

## Neslihan xəstəliyindən danışdı



**Səhhətində problem yarandığı üçün "Sefirin kızı" serialından gedən aktrisa Neslihan Atagül izləyicilərinin suallarını cavablandırıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, bağırsaq sindromundan əziyyət çəkən sənətçi hazırda müalicəsinin davam etdiyini bildirib.

"Yazdığınız dəstək mesajlarınız, gözəl diləkləriniz, yanımda olduğunuz üçün min dəfə təşəkkür edirəm. Məni tək qoymadınız. Yaxşı olmağa çalışıram. Bir az istirahətə ehtiyacım var idi, dincəlirəm. Bir az da dincəlməliyəm" deyə, Neslihan bildirib.